# YENİ AZƏRBAYCAN

1 oktyabr 2025-ci il, çərşənbə
№ 176 (7003)
Qiyməti 60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.




Milli azadlıqdan şirin nemət yoxdur!

# Örnək münasibətlər - əsl strateji tərəfdaşlar...



Bax səh. 2




Bax səh. 4

## Rəqəmsal informasiya mühitində etik məsuliyyət...

## Bakıda II Azərbaycan-Özbəkistan Media Forumu keçirilib

Bax səh. 4



Bax səh. 4

## Rəqəmsal dövrdə media tərəfdaşlığı

## İctimai nəqliyyatda tarif dəyişikliyi: yüksək keyfiyyət, müasir standart...

Məlum olduğu kimi Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin qərarına əsasən, oktyabrın 1-dən ictimai nəqliyyatda, o cümlədən metroda yeni tariflər təsdiq olunaraq qüvvəyə minir. Tarif dəyişikliyi ictimai nəqliyyatda daha keyfiyyətli xidmətin göstərilməsinə zərurət yarandığı bir dövrdə sərnişindaşıma xidmətinin davamlılığını təmin etmək və dövlət proqramında qarşıya qoyulan hədəflərə nail olmaq məqsədi daşıyır.Yeni tariflər Bakı şəhərinin inzibati ərazisi...

Bax səh. 5

## Yelisey Sarayı çətin sınaq qarşısında

2018-ci ildən etibarən Fransada prezident Emmanuel Makronun rəhbərliyi ilə həyata keçirilən səriştəsiz siyasət ölkə hüdudlarından kənarda, müstəmləkə ərazilərində olduğu kimi, daxildə də bir sıra ciddi kataklizmlərə səbəb olub. Bu gün Fransa Avropa İttifaqında (Aİ) “drayver” funksiyasını sürətlə itirməkdədir. Ölkənin kifayət qədər yüksək xarici borc öhdəliyi yaranıb. Büdcə kəsiri kritik dərəcədə artıb. Son iki ildə hökumət böhranını nizama salmaq cəhdləri Yelisey Sarayının əsas işinə çevrilib, desək, əsl həqiqəti ifadə etmiş olarıq. Bununla belə, problemi həll...

Bax səh. 6

## 8 ayda 2,4 milyard dollar...

2025-ci ilin yanvar-avqust aylarında Azərbaycanın qeyri-neft ixracı artaraq 2,4 milyard dollar təşkil edib. Bu, ötən ilin 8 ayı ilə müqayisədə 10,3 faiz artım deməkdir. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin “İxrac icmalı”nın yeni nəşrində qeyd edilir ki, hesabat dövründə yeyinti məhsulları üzrə ixrac daha yüksək artım nümayiş etdirib, dəyər 22,9 faiz artaraq 774,2 milyon dollara bərabər olub. İxrac mallarının strukturunda şəkər ötən ilin müvafiq dövrünə nəzərən 58,2 faiz, meyvə-tərəvəz...

Bax səh. 5

## İran sərt sanksiyalarla üz-üzə

İranın nüvə proqramı ətrafında gərginlik yenidən pik həddə çatıb. Xəbər verildiyi kimi, 12 günlük müharibədə Amerika Birləşmiş Ştatlarının (ABŞ) və İsrailin silahlı qüvvələri İranın strateji nüvə obyektlərinə dağıdıcı zərbələr endirib. Aparılan əməliyyatların səmərəliliyi barədə İrandan və Qərb dairələrindən gələn məlumatlar bir-birini təkzib etsə də, qısamüddətli müharibədən sonra yaranan nisbi sakitlik fonunda münasibətlərin danışıqlar yolu ilə nizama salınacağına müəyyən ümidlər baş qaldırmışdı. Ancaq son günlərdə cərəyan edən proseslər İranın nüvə...

Bax səh. 6



## Afrikada yeni qarşıdurma

Bax səh. 7

## Qəzza ilə bağlı sülh planı...

Bax səh. 7



Bax səh. 7

# Örnək münasibətlər - əsl strateji tərəfdaşlar...

## Azərbaycan ilə İtaliya arasında imzalanmış Tərəfdaşlıq haqqında Birgə Bəyannamə tam icra edilir

İtaliya Respublikasının Prezidenti Sercio Mattarella sentyabrın 30-da Azərbaycan Respublikasına rəsmi səfərə gəlib. AZƏRTAC xəbər verir ki, Prezident Sercio Mattarellanın rəsmi qarşılanma mərasimi olub.

Daha sonra Prezident İlham Əliyevin İtaliya dövlət başçısı ilə təkbətək və geniş tərkibdə görüşü olub. Görüşdə çıxış edən Prezident İlham Əliyev İtaliya Prezidentini bir daha salamlayıb. Vurğulanıb ki, İtaliya Prezidentinin səfərinə çox böyük əhəmiyyət veririk. Bu, İtaliya ilə Azərbaycan arasındakı dostluq, tərəfdaşlıq əlaqələrinin təzahürüdür: "Biz Sizinlə tez-tez görüşürük Romada və eyni zamanda, bu, Sizin Azərbaycana ikinci rəsmi səfərinizdir. Keçən il Sizinlə görüş zamanı mən Sizi Azərbaycana dəvət etmişəm və təşəkkür edirəm ki, dəvətimi qəbul etmisiniz. Bu gün İtaliya-Azərbaycan əlaqələrinin inkişafı göz qabağındadır. Biz artıq bir neçə vacib məsələni müzakirə etmişik. Bizim əməkdaşlığımız çoxşaxəlidir, demək olar ki, bir çox sahələri əhatə edir, energetikadan başlamış sənaye istehsalına qədər. Hazırda təhsil sektorunu da əhatə edən əməkdaşlıq doğrudan da strateji əhəmiyyət daşıyır və beş il bundan əvvəl imzalanmış Hərtərəfli Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə deyə bilərəm ki, tam icra edilir".



Dövlət başçısı qeyd edib ki, bizim əlaqələrimiz, eyni zamanda, yerləşdiyimiz bölgənin inkişafı üçün də önəmlidir, bizim Avropa İttifaqı ilə əlaqələrimizə müsbət təsir göstərir. İtaliya həmişə bizim Avropa İttifaqı ilə daha sıx münasibətlərin qurulmasına öz dəstəyini vermişdir: "Biz buna görə Sizə minnətdarıq. Təbii ki, energetika sahəsində bir çox əhəmiyyətli nəticələr var. Bu barədə biz artıq danışmışıq. İndi geniş tərkibdə bu müzakirəni davam etdirəcəyik. Nəticələrlə bağlı, əlbəttə ki, bir-birimizi haqlı olaraq təbrik edə bilərik. Amma bizim planlarımız daha genişdir. Həm İtaliya ilə ikitərəfli formatda, həm Avropa İttifaqı ilə bütövlükdə energetika sahəsində yeni layihələrin həyata keçirilməsi məsələləri çox vacibdir və biz bu məsələlər üzərində uğurla çalışırıq".





Prezident İlham Əliyev İtaliya-Azərbaycan Universitetinin yeni binasının açılışında birlikdə iştirak edəcəklərini də vurğulayıb. "Bu, əslində, bizim bir dostluq layihəmizdir və layihənin başlamasından icrasına qədər cəmi üç il vaxt keçib. 2022-ci ildə mənim tərəfimdən müvafiq Sərəncam verilmişdir və artıq yüzlərlə tələbə təhsilə cəlb edilib. Əlbəttə ki, onlar İtaliya-Azərbaycan dostluğunun elçiləri olacaqlar. Həm gözəl təhsil alacaq, həm də ki, bizim aramızdakı dostluğu daha da möhkəmləndirəcəklər", -deyə Prezident bildirib.













İtaliya Prezidenti Sercio Mattarella öz növbəsində təşəkkür edib və yenidən Bakıda olmağından məmnunluq duyduğunu söyləyib: "Sizi 7 ildən sonra yenidən Bakıda görməkdən doğrudan da çox məmnunam. Bu, ölkələrimizi, çoxşaxəli strateji tərəfdaşlığımızı birləşdirən dərin dostluğun təsdiqidir. Sizin Romaya səfəriniz də dostluq əlaqələrimizin bir daha bariz nümunəsidir. Biz xüsusilə də ölkələrimiz arasındakı strateji tərəfdaşlığa mühüm dəyər veririk. Bu münasibətlər getdikcə daha da inkişaf edir və bir çox sahələri əhatə edir, gələcək üçün də çox böyük əhəmiyyətə malikdir".

Prezident İlham Əliyev ilə birgə İtaliya-Azərbaycan Universitetinin yeni kampusunun açılışında iştirak etməyi özü üçün şərəf saydığını bildirən Sercio Mattarella deyib ki, bu, bir daha onu sübut edir ki, ölkələrimiz arasındakı tərəfdaşlıq yalnız iqtisadi sahə ilə məhdudlaşmır. Bu, həmçinin bizim mədəni əlaqələrimizin də yüksək səviyyədə olduğunun və gələcəkdə gənclərimizin əməkdaşlığı üçün daha yeni üfüqlər açmasının nümunəsidir: "Mən Sizə dəvətinizə görə dərin təşəkkürümü bildirirəm. Bu, eyni zamanda, gələcəkdə yeni görüşlərimizin bir vəsiləsidir".



İtaliya Prezidenti Sercio Mattarella COP29-un ölkəmizdə yüksək səviyyədə keçirildiyini vurğulayaraq, həmin tədbirdə qəbul edilmiş qərarların əhəmiyyətinə toxunub. Qonaq, eyni zamanda, Vaşinqtonda Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh gündəliyi ilə bağlı əldə olunmuş nəticələr münasibətilə dövlətimizin başçısını təbrik edib.

Prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər. Prezident İlham Əliyev bildirib ki, bugünkü səfər onu göstərir ki, İtaliya-Azərbaycan əlaqələri çox uğurla inkişaf edir və biz əsl strateji tərəfdaşlarıq. "Bizim aramızda iki strateji tərəfdaşlıq sənədi var. Birinci sənəd 2015-ci ildə imzalanmışdır. İkinci sənəd - Hərtərəfli Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə isə 5 il bundan əvvəl imzalanmışdır. Bu illər ərzində münasibətlərimiz çox sürətlə və müxtəlif istiqamətlər üzrə inkişaf edib. Siyasi əlaqələr ən yüksək səviyyədədir. Qeyd etdiyim kimi, biz tez-tez görüşürük. İqtisadi sahədə İtaliya bizim üçün birinci ticarət tərəfdaşıdır və ildən-ilə ticarət dövriyyəmiz artmaqdadır. Energetika sahəsində bir çox önəmli layihələr icra edilmişdir. Xüsusilə Azərbaycan neftini və qazını İtaliyaya ixrac etməklə biz dünya bazarlarına geniş həcmdə öz təbii resurslarımızı göndərə bilmişik. Eyni zamanda, bir çox ölkələrin enerji təhlükəsizliyinə də öz töhfəmizi vermişik", deyən dövlət başçısı bildirib ki, Prezident Mattarella ilə söhbət əsnasında onun ötən səfəri xatırlanıb: "O vaxt TAP layihəsinin icrası məsələsi gündəlikdə idi. Müxtəlif problemli məqamlar mövcud idi və Prezident Mattarellanın səfərdən sonra şəxsən bu məsələyə müdaxilə etməsi, bu məsələnin tənzimlənməsi imkan verdi ki, TAP layihəsi uğurla icra edildi. 2020-ci ildən başlayaraq bu layihə vasitəsilə İtaliyaya Azərbaycan qazı ixrac edilir. Bu gün Cənub Qaz Dəhlizi vasitəsilə Azərbaycan 14 ölkəyə təbii qazı ixrac edir. İldən-ilə bizim əhatə dairəmiz artır və bu gün boru kəmərləri ilə ixrac edilən təbii qazın coğrafi əhatəsinə görə Azərbaycan dünyada birinci yerdədir. Azərbaycan nefti İtaliyanın neft balansında birinci yerdə, Azərbaycan qazı isə ikinci yerdədir. Yəni bu əməkdaşlıq həm güclü tərəfdaşlıqdan xəbər verir, həm də biz uzun illər etibarlı tərəfdaşlar kimi bir-birimizi dəstəkləmişik. Əgər bu səmimi münasibətlər olmasaydı, qarşılıqlı inam olmasaydı, bu layihələrin həyata keçirilməsi mümkün olmazdı".

Prezident İlham Əliyev qeyd edib ki, Prezident Mattarellaya bu gün məlumat verdim ki, biz hazırda Avropa İttifaqı ilə elektrik enerjisinin ixracı üzrə işləyirik. Elektrik xətlərinin çəkilməsi ilə bağlı texniki-iqtisadi əsaslandırma hazırlanmaqdadır: "Yəqin ki, yaxın vaxtlarda hazır olacaq. Beləliklə TAP-ın və Cənub Qaz Dəhlizinin açdığı yol bu gün daha böyük layihələrə yol açır. Elektrik enerjisi, o cümlədən Xəzərin dibi ilə Orta Asiyadan Azərbaycana və ondan sonra Avropa məkanına ötürüləcək elektrik enerjisi bizim əməkdaşlığımızın həcmini daha da artıracaq. Keçən dəfə Prezident Mattarella Azərbaycanda səfərdə olanda biz birlikdə Sumqayıtda İtaliya şirkətləri tərəfindən inşa edilmiş böyük bir sənaye müəssisəsinin açılışında iştirak etdik".

Bu səfər zamanı isə İtaliya-Azərbaycan Universitetinin açılışını qeyd edəcəklərini bildirən Prezident İlham Əliyev deyib ki, bu dinamika, bu əməkdaşlıq çərçivələrinin genişləndirilməsi ilk növbədə bizim səmimi münasibətlərimizdən xəbər verir. "Yəni, energetika, sənaye sahəsindəki əməkdaşlıq humanitar sahədəki əməkdaşlığa da yol açdı. Artıq İtaliya-Azərbaycan Universitetində yüzlərlə tələbə oxuyur və bu, bizim üçün yeni bir təhsil ocağı olacaq. Burada təhsil alan və alacaq tələbələr həm yüksək biliklərə malik olacaqlar, eyni zamanda, təbii olaraq İtaliyanın Azərbaycandakı, Azərbaycanın İtaliyadakı elçilərinə çevriləcəklər. Yəni bu, bizim dostluğumuzu daha da gücləndirəcək. Bu gün danışıqlar zamanı biz, həmçinin Avropa İttifaqı-Azərbaycan əlaqələri haqqında danışdıq. İtaliya hər zaman Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin inkişafına dəstək vermişdir, bu gün də biz bunu hiss edirik və son vaxtlar Avropa İttifaqı-Azərbaycan əlaqələrində də müsbətə doğru addımlar atılır. Bu da bizi təbii olaraq məmnun edir", -deyən ölkə başçısı onu da əlavə edib ki, bizim strateji tərəfdaşlığımız həm rəsmi sənədlərdə, həm həyatda, praktik işlərdə özünü büruzə verir. Hesab edirəm ki, bir-birindən uzaqda yerləşən ölkələr arasındakı münasibətlərin qurulması bizim timsalımızda bir örnək ola bilər.

İtaliya Prezidenti Sercio Mattarella çıxışında deyib ki, aramızda böyük dostluq, qarşılıqlı, tam şəkildə təşəkkül tapmış anlaşma var və İtaliya-Azərbaycan arasında münasibətlər inkişaf edir. "Əməkdaşlığımız - Azərbaycanın bizə açıqlığı, bizimlə gördüyü işlər, işbirliyimiz göz qabağındadır. Mən Prezident Əliyevə bildirdim ki, sizin Avropa İttifaqı ilə əməkdaşlığınıza gəldikdə, İtaliya öz tərəfindən addımlar atacaqdır. Xüsusi qeyd edirəm ki, Azərbaycan geniş şəkildə çox nüfuzlu bir tərəfdaşdır. Avropa İttifaqı bunu görür və təbii ki, bizim sizinlə əməkdaşlığımız bu çərçivədə də çox əhəmiyyətli olacaqdır. Biz əlimizdən gələni edəcəyik ki, bu əlaqələr daha da artsın, inkişaf etsin və hər zaman daha çox yeni sahələri əhatə etsin, ölkələrimizin, xalqlarımızın rifahına xidmət etsin. Bu məqsədlə də mən Bakıya səfərə gəlmişəm".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın şərəfinə rəsmi ziyafət verilib.

# Əli Əsədov Minskdə...





**Baş nazir Belarus Prezidenti ilə görüşüb, Avrasiya Hökumətlərarası Şurasının geniş tərkibdə iclasında qonaq qismində iştirak edib**

Sentyabrın 30-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov MDB Hökumət Başçıları Şurası üzvlərinin Belarus Prezidenti Aleksandr Lukaşenko ilə görüşündə iştirak edib. Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetinin mətbuat xidmətindən məlumat verilib. Belarus Prezidenti MDB Hökumət Başçıları Şurası üzvlərini salamlayıb. Görüşdə çıxış edən Əli Əsədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını və ən xoş arzularını Aleksandr Lukaşenkoya çatdırıb. Baş nazir, həmçinin Azərbaycan-Belarus iqtisadi əməkdaşlığının ikitərəfli gündəliyinə daxil olan məsələlərə toxunub.

Səfər çərçivəsində Baş nazir Əli Əsədov 30-da Avrasiya Hökumətlərarası Şurasının geniş tərkibdə iclasında da qonaq qismində iştirak edib. İclasda çıxış edən Baş nazir Ə.Əsədov iqtisadi-ticari əməkdaşlığı Azərbaycanın AİB-ə üzv ölkələr ilə əlaqələrinin fundamental vektoru kimi dəyərləndirib. O qeyd edib ki, 2025-ci ilin ilk səkkiz ayında Azərbaycanın AİB-ə üzv ölkələr ilə ticarət dövriyyəsi 22 faizdən çox artıb.

Baş nazir investisiya qarşılıqlı fəaliyyətinin müsbət dinamikasını qeyd edib. “Avrasiya İqtisadi Birliyinə (AİB) üzv ölkələrdən olan tərəfdaşlarımızın biznesləri Azərbaycan iqtisadiyyatının bir çox sahələrində geniş şəkildə təmsil olunur”, - deyə o vurğulayıb. Baş nazir əlavə edib ki, buna ölkədəki etibarlı və şəffaf investisiya mühiti kömək edir.

O, həmçinin bildirib ki, Azərbaycan investorları AİB üzv dövlətlərində sənayenin geniş spektrini əhatə edən və onların iqtisadiyyatlarının inkişafına töhfə verən layihələri fəal şəkildə həyata keçirirlər.

Baş nazir əsas iqtisadi sektorlara qarşılıqlı sərmayə axınını təmin etmək üçün Azərbaycanın AİB üzvü olan bir neçə tərəfdaşla yaratdığı birgə investisiya fondlarının fəaliyyətinə toxunub: “Bu təşəbbüs artıq öz effektivliyini sübut edib və əməkdaşlıq üçün yeni üfüqlər açır”.

Nəqliyyat-tranzit sektorunda əməkdaşlığa toxunan Ə.Əsədov bildirib ki, bu, qarşılıqlı ticarətin, investisiyaların artırılması, yeni iqtisadi imkanların inkişafı üçün mühüm potensiala malik olduğu üçün gündəlikdə xüsusi yer tutur.

“Avropa və Asiyanın kəsişməsində yerləşən və müasir infrastruktura malik Azərbaycan region ölkələri və tərəfdaşlarımız üçün yeni imkanlar yaradan etibarlı nəqliyyat və logistika habına çevrilib”, - deyə o qeyd edib.

Nəqliyyat infrastrukturunun müasirləşdirilməsi istiqamətində Azərbaycanın sistemli səyləri barədə danışan Baş nazir Bakı-Tbilisi-Qars dəmir yolunun ötürücülük qabiliyyətinin artırılmasını və Bakı Beynəlxalq Dəniz Ticarət Limanının genişləndirilməsinin ikinci mərhələsinə start verildiyini diqqətə çatdırıb.

Ə.Əsədov Orta Dəhlizin əhəmiyyətini də vurğulayıb. O qeyd edib: “Son üç ildə bu dəhliz üzrə Azərbaycan ərazisindən keçən yükdaşımaların həcmi demək olar 90% artıb ki, bu da onun artan səmərəliliyinin və daha çox tələbat olmasının inandırıcı sübutudur”.

Baş nazir bu kontekstdə Azərbaycanın əsas ərazisini onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək üçün əldə olunan razılaşmaların tarixi əhəmiyyətini qeyd edib. Onun sözlərinə görə, bu sazişlər tranzit marşrutlarının genişləndirilməsi, Azərbaycanın regional və qlobal logistikada rolunun gücləndirilməsi üçün yeni şərait yaradır.

Azərbaycan hökumətinin başçısı yeni dəhlizin Şimal-Cənub dəhlizi ilə yanaşı, Orta Dəhlizin də mühüm seqmentinə çevriləcəyinə əminliyini ifadə edib.

Xəzəryanı beş dövlətin hamısının, o cümlədən İran nümayəndələrinin iclasda iştirak etdiyini nəzərə alaraq, Ə.Əsədov Xəzər dənizinin dayazlaşması məsələsinə də diqqət çəkib.

“Azərbaycan Prezidenti İlham Əliyev bu günlərdə BMT kürsüsündə bu məsələnin vacibliyini bir daha vurğuladı. Təəssüf ki, Xəzər dənizinin ekoloji vəziyyəti sürətlə pisləşir. Xəzər regionunda potensial ekoloji fəlakətin qarşısının alınması Xəzəryanı ölkələrin təcili birgə səylərini tələb edir. Azərbaycan əvvəllər əldə edilmiş razılaşmalara sadiq qalaraq, bu problemin birgə həlli yollarını tapmaq üçün əməkdaşlığı gücləndirməyə hazırdır”, - deyə Baş nazir bildirib.

Baş nazir, həmçinin AİB çərçivəsində başlanan antidempinq təhqiqatlarını qeyd edib. O, Azərbaycan mənşəli mallara - daha dəqiq desək, polietilen, polipropilen və propilen sopolimerlərə münasibətdə təhqiqatları, habelə alüminium lentləri ilə bağlı təkrar təhqiqatı xatırladıb. Əli Əsədov qeyd edib ki, qeyd olunan mallara antidempinq tədbirləri tətbiq edilərsə, Azərbaycanın AİB-yə ixracının ümumi həcmi əhəmiyyətli dərəcədə azala bilər.

Bu prosesdə iştirak edən Azərbaycan şirkətləri əməkdaşlığa açıqdır. Ümid edirik ki, araşdırmalar mümkün qədər real faktlara əsaslanacaq və nəticə Azərbaycanın AİB ölkələri ilə həm çoxtərəfli, həm də ikitərəfli səviyyədə ticarət əməkdaşlığına heç bir real ziyan vurmayacaq.

# Milli Məclisin payız sessiyası işə başladı...



Sentyabrın 30-da Milli Məclisin payız sessiyası dövründə ilk plenar iclası işə başlayıb. Iclasın gündəliyinə 12 məsələ daxil edilib. İclasda Azərbaycan xalqının Vətən müharibəsinin başlanmasının 5-ci ildönümü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı qəbul edildib. Bundan başqa iclasda Azərbaycan Respublikası Milli Məclisinin 2025-ci il payız sessiyasının qanunvericilik işləri planı haqqında, “Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Konstitusiya qanununun layihəsi (II səsvermə), “Ozon qatını dağıdan maddələr haqqında” Monreal Protokoluna 2016-cı il 15 oktyabr tarixli Kiqali Düzəlişinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası qanununun layihəsi, “Dabaq Xəstəliyinə Nəzarət üzrə Avropa Komissiyasının Nizamnaməsinə qoşulmaq haqqında” Azərbaycan Respublikası qanununun layihəsi, “Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin ictimai səhiyyə sahəsində sanitariya-epidemioloji xarakterli fövqəladə vəziyyətlərin qarşısının alınması və cavab tədbirləri üzrə əməkdaşlığı haqqında Saziş”in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi, “Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən təmsil olunan Azərbaycan Respublikası Hökuməti ilə Beynəlxalq Telekommunikasiya İttifaqı arasında Ümumdünya Telekommunikasiyanın İnkişafı Konfransının (ÜTİK-25) keçirilməsi, təşkili və maliyyələşdirilməsi ilə bağlı Saziş”in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi, “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən təmsil olunan Azərbaycan Respublikası Hökuməti ilə İslam İnkişaf Bankı Qrupu arasında Azərbaycan Respublikası Hökuməti (ev sahibi ölkə) tərəfindən İİB Qrupunun 2026-cı ildə keçiriləcək İllik Toplantıları üçün təminatlara dair Anlaşma Memorandumu”nun təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası qanununun layihəsi, “Beynəlxalq ticarətdə müəyyən təhlükəli kimyəvi maddələr və pestisidlər üzrə qabaqcadan əsaslandırılmış razılıq proseduru haqqında Rotterdam Konvensiyası”na qoşulmaq barədə Azərbaycan Respublikası qanununun layihəsi, “Azərbaycan Respublikasının Bəhreyn Krallığında (Manama şəhərində) Səfirliyinin təsis edilməsi haqqında” Azərbaycan Respublikası qanununun layihəsi, “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş) və Azərbaycan Respublikasının Vergi Məcəlləsində və “Gömrük tarifi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş) müzakirə olunub. Payız sessiyasının ilk panel iclasında çıxış edən Milli Məclisin sədri Sahibə Qafarova bildirib ki, Prezident İlham Əliyev sentyabrın 25-də Nyu-Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyasında çıxış edib. Bu çıxış Cənubi Qafqazda yaranmış yeni reallıqları beynəlxalq arenaya təqdim etmək baxımından böyük əhəmiyyət daşıyır. Dövlət başçısı öz çıxışında hərbi Zəfərimizin diplomatik uğurla tamamlanmasını qeyd etdi. Birgə Bəyannamə həm də onu göstərdi ki, dayanıqlı sülh yalnız beynəlxalq hüququn normaları əsasında mümkündür.

O qeyd edib ki, Azərbaycan Şərqlə Qərbi birləşdirən nəqliyyat və enerji marşrutlarının əsas həlqəsinə çevrilib. S.Qafarova hesab edib ki, Prezident İlham Əliyevin yüksək tribunadan səsləndirdiyi fikirlər bir çox dövlətlər üçün son dərəcə əhəmiyyətli olacaq.

Panel iclasında Azərbaycanın Bəhreyn Krallığında səfirliyinin təsis edilməsi ilə bağlı qanun layihəsi qəbul olunub. Layihəni Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov təqdim edib. Bildirib ki, Azərbaycanın xarici siyasət kursunda ərəb dünyası ilə əlaqələrin dərinləşdirilməsi prioritet istiqamətlərdən biridir: “Bu baxımdan Bəhreyn Krallığı körfəz ölkələri içərisində Azərbaycanla əlaqələrini yüksək səviyyədə quran ölkələrdən biridir. Səfirliyin açılması Azərbaycanla Bəhreyn Krallığı arasında münasibətləri tamamilə yeni bir müstəviyə daşıyacaq”, -deyə komitə sədri vurğulayıb. Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Bundan başqa, iclasda gündəlikdə yer alan qanun layihələri müzakirəyə çıxarılıb. Qanun layihələri səsverməyə çıxarılaraq qəbul edilib.

# Anım Gününün beşinci ildönümü ilə əlaqədar Milli Məclisin BƏYANATI



“2020-ci il sentyabrın 27-də başlanmış və Azərbaycan Silahlı Qüvvələrinin parlaq Qələbəsi ilə başa çatmış 44 günlük Vətən müharibəsi milli tariximizin ən şərəfli səhifələrindən birini təşkil edir. 30 illik işğala hərbi yolla son qoymaqla və dövlətimizin ərazi bütövlüyünün bərpasını təmin etməklə Azərbaycan Respublikası bütün dünyaya sübut etdi ki, beynəlxalq hüquq mexanizmlərinin işləmədiyi, dövlətlərə münasibətdə ikili standartların hökm sürdüyü bir şəraitdə də uzaqgörən və müdrik dövlətçilik strategiyası, öz lideri ətrafında sıx birləşən xalqın qanuni maraqlarını müdafiə etmək naminə fədakarlığı ədaləti bərpa etməyə və tarixin gedişini dəyişdirməyə qadirdir.

Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyev Qələbənin əldə olunmasında həlledici rol oynamışdır. Onun irəli sürdüyü milli təhlükəsizlik konsepsiyasının həyata keçirilməsi nəticəsində müasir dövrün ən yüksək standartlarına cavab verən silahlı qüvvələr formalaşdırılmışdır. Doğma torpaqlarımızı işğaldan azad etməyə hazır olan vətənpərvər gənc nəsil yetişdirilmişdir. Bütün bunlar Azərbaycan ərazilərinin Ermənistanın işğalından azad edilməsi barədə Ulu Öndər Heydər Əliyevin vəsiyyətinin yerinə yetirilməsinə şərait yaratmışdır.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin strateji baxışı, cəsarəti, qətiyyəti və əzmkarlığı, sərkərdəlik məharəti döyüş meydanında uğurların təməlində dayanmışdır. Vətən müharibəsi Azərbaycan əsgərlərinin və zabitlərinin kütləvi qəhrəmanlığına və fədakarlığına səhnə olmuşdur. Hərbi qulluqçular ən yüksək peşəkarlıq, mərdlik və Vətənə sədaqət nümayiş etdirmiş, öz borclarını şərəflə yerinə yetirərək doğma torpaqlarımızı işğaldan azad etmişlər. Onların bir çoxu “Vətən Müharibəsi Qəhrəmanı” adına və yüksək dövlət mükafatlarına layiq görülmüşdür.

Təəssüf ki, hərbi əməliyyatlar dövründə Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn normalarını və prinsiplərini, o cümlədən 1949-cu il 12 avqust tarixli Cenevrə konvensiyalarını kobudcasına pozaraq dinc əhaliyə qarşı dəhşətli cinayətlər törətmişlər. Cəbhə xəttindən uzaqda yerləşən Gəncə, Bərdə, Tərtər, Mingəçevir, Qəbələ şəhərlərinə, Siyəzən, Xızı rayonlarına, digər yaşayış məntəqələrinə ballistik raketlər, habelə qadağan olunmuş ağ fosforlu və kaset tipli mərmilər ilə edilən hücumlar müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlərdir.

Dinc yaşayış məntəqələrinə 227 raket və 30 minə yaxın mərmi atılmış, nəticədə 100-dən çox dinc sakin, o cümlədən 11 uşaq qətlə yetirilmiş, 450-dən çox insan yaralanmışdır. Azərbaycan ərazisində 12 min mülki infrastruktur obyekti, o cümlədən fərdi evlər və çoxmənzilli yaşayış binaları dağıdılmış və ya onlara ciddi ziyan vurulmuşdur.

Bu qanlı hücumlara və vəhşilik əməllərinə baxmayaraq, Azərbaycan Ordusu beynəlxalq humanitar hüququn normalarına dönmədən əməl etmiş, düşmənin yalnız silahlı qüvvələrini və hərbi obyektlərini hədəf almış, mülki şəxslərə və yaşayış məntəqələrinə zərər vurulmasına yol verməmişdir. Torpaqlarımız qəhrəman əsgərlərimizin, əsgər və zabitlərimizin, qazilərimizin qanı və canı bahasına işğaldan azad edilmişdir. 2020-ci il noyabrın 10-u Ermənistanın kapitulyasiyası və Azərbaycanın ərazi bütövlüyünün bərpası günü kimi tarixə həkk olunmuşdur.

İşğalçılara qarşı döyüş əməliyyatlarında həlak olmuş hərbi qulluqçuların, Ermənistanın dövlət terrorizmi aktları nəticəsində şəhər və kəndlərdə qətlə yetirilmiş dinc insanların xatirəsinə ehtiram əlaməti olaraq bu il sentyabrın 27-də ölkəmizdə “Anım Günü” beşinci dəfə qeyd edilmişdir. Vətən yolunda canından keçmiş şəhidlər xalqımızın qəlbində əbədi yaşayacaqdır.

Ermənistanın davam edən hərbi-siyasi təxribatlarına son qoyulması məqsədi ilə 2023-cü il sentyabrın 19-20-də müzəffər Ali Baş Komandanın məharətli rəhbərliyi ilə Qarabağda həyata keçirilən lokal antiterror əməliyyatı xalqımızın milli ruhunun yenilməzliyini bir daha nümayiş etdirdi. Azərbaycan Ordusunun qəhrəmanlığı və fədakarlığı sayəsində erməni silahlı dəstələri tərk-silah edildi, kriminal xunta rejiminin fəaliyyətinə son qoyuldu, dövlətimizin suverenliyi onun bütün ərazisində bərpa edildi.

Bu gün Azərbaycan hökuməti azad edilmiş Qarabağın və Şərqi Zəngəzurun bərpasına dair geniş miqyaslı proqramlar həyata keçirir. Ərazilər minalardan təmizlənir, işğal dövründə vəhşicəsinə dağıdılmış şəhər və kəndlər yenidən yaradılır, yollar, körpülər, tunellər, digər obyektlər inşa olunur, elektrik və su xətləri çəkilir. Bölgədə üç beynəlxalq hava limanı tikilib istifadəyə verilmişdir. “Yaşıl” energetikanın, innovativ infrastrukturun genişləndirilməsinə və ərazilərin dayanıqlı inkişafına xüsusi diqqət yetirilir. Keçmiş məcburi köçkünlər mərhələ-mərhələ öz yurdlarına qaytarılır. İndiyədək 50 mindən çox soydaşımız doğma torpaqlarında yenidən dinc həyata başlamışdır.

44 günlük Vətən müharibəsindən dərhal sonra Azərbaycan ərazi bütövlüyünün və suverenliyin qarşılıqlı şəkildə tanınması əsasında Ermənistanla dövlətlərarası münasibətlər qurulmasına hazır olduğunu bəyan etmiş, sülhün bərqərar edilməsi üçün beynəlxalq hüquqa əsaslanan 5 təməl prinsip irəli sürmüşdür. Sülh sazişinin layihəsi də məhz Azərbaycan tərəfindən təqdim edilmişdir.

Bu il avqustun 8-də Vaşinqtonda, Ağ evdə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycan Respublikası Prezidentinin və Ermənistan Respublikası Baş nazirinin Birgə Bəyannamə imzalaması, “Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair Saziş” layihəsinin paraflanması iki ölkə arasında münaqişəyə birdəfəlik son qoyulmasına əlverişli şərait yaradır. Eyni zamanda, əldə edilmiş razılaşmalara uyğun olaraq reallaşacaq Zəngəzur dəhlizi qitələri birləşdirən mühüm nəqliyyat bağlantısına çevrilmək potensialına malikdir.

Vaşinqtonda qəbul edilmiş Birgə Bəyannamədə sülh sazişinin rəsmi şəkildə imzalanması üçün Azərbaycanın irəli sürdüyü hər iki şərt təsbit edilmişdir. İlk nəticə kimi, Azərbaycan və Ermənistanın müraciətinə əsasən keçmiş münaqişənin qalığı olan ATƏT-in Minsk prosesi və əlaqəli strukturları ATƏT-in Nazirlər Şurasının qərarı ilə ləğv edilmişdir. Digər şərt olan Ermənistan Konstitusiyasında Azərbaycan Respublikasına qarşı ərazi iddialarının aradan qaldırılması ilə bağlı müvafiq dəyişikliklər edildikdən sonra isə iki ölkə arasında sülh sazişinin imzalanması yolunda heç bir manə qalmayacaqdır.

Azərbaycan Respublikasının Milli Məclisi əmin olduğunu bildirir ki, şəhidlərimizin qanı və canı bahasına, əsgər və zabitlərimizin qəhrəmanlığı sayəsində Zəfər qazandığımız 44 günlük Vətən müharibəsinin nailiyyətləri Azərbaycan xalqının bugünkü və gələcək nəsilləri üçün daim güc və ilham mənbəyi olacaq, xalqımız öz liderinin ətrafında sıx birləşərək bölgədə güvənlik və inkişafın dayağı olan güclü, ləyaqətli və ədalətli dövlətini möhkəmləndirmək yolunda yeni-yeni uğurlar qazanacaqdır”.

# Bakıda II Azərbaycan-Özbəkistan Media Forumu keçirilib









Sentyabrın 30-da Bakıda Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə keçirilən “Rəqəmsal transformasiya və media” mövzusunda II Azərbaycan-Özbəkistan Media Forumunun açılış mərasimi olub.

AZƏRTAC xəbər verir ki, Forum Azərbaycan və Özbəkistan arasında media sahəsində əməkdaşlıq əlaqələrinə həsr olunmuş videoçarxın nümayişi ilə başlayıb.

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov çıxış edərək bildirib ki, Azərbaycan və Özbəkistan xalqları arasında olan tarixi bağlar bu gün prezidentlər İlham Əliyevin və Şavkat Mirziyoyevin güclü siyasi iradəsi, uzaqgörən liderliyi nəticəsində yüksək mərhələyə çatıb. İkitərəfli əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsinin bütün sahələrdə, o cümlədən media sahəsində əməkdaşlığın gücləndirilməsi üçün geniş imkanlar açdığını vurğulayan İcraçı direktor qeyd edib ki, rəqəmsal media mühitinin nizama salınması, yeni texnologiyaların tətbiqi və jurnalistikanın peşəkar standartlarının qorunması istiqamətində qarşılıqlı təcrübə və bilik mübadiləsi hər iki ölkənin media sektorunun inkişafına mühüm töhfə verəcək. “Süni intellekt texnologiyalarının media sahəsinə tətbiqindən irəli gələn spesifik məsələlərin həlli günümüzün vacib çağırışları sırasındadır. Bu yeni bilik və bacarıqlara yiyələnmək, onun verdiyi fürsətləri dəyərləndirərək ölkələrimizin informasiya landşaftını müasirləşdirmək zərurəti artıq hiss olunur. Media süni intellektdən yalnız forma baxımından təkmilləşmək üçün deyil, eyni zamanda, daha maraqlı kontent yaradılması prosesindən də yararlanmalıdır”, - deyə Ə.İsmayılov bildirib.



Forumda çıxış edən Özbəkistan Respublikası Prezidenti Administrasiyasının Kommunikasiya şöbəsinin sektor müdiri Dilşod Saidjanov iki qardaş ölkə arasında media sahəsində əməkdaşlığın genişləndirilməsinin önəmini vurğulayıb. O deyib ki, ortaq tarixi və mədəni dəyərlərə söykənən bu əlaqələr informasiya mübadiləsinin intensivləşdirilməsi, dezinformasiyaya qarşı birgə mübarizə strategiyalarının formalaşdırılması və regional informasiya təhlükəsizliyinin gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. “Mövcud geosiyasi vəziyyət şəraitində əməkdaşlığımız xüsusi rəng alır. Qardaş ölkələrimizin bir-birilərini tanıması çox vacibdir. Rəqəmsal transformasiya əsrimizə qədəm qoyan yenilikdir. Biz çox çalışırıq ki, media və blogerlər bu texnologiyaları qanunvericiliyin tələblərinə uyğun tətbiq edə bilsinlər. Bu, bizə milli maraqlarımızı qorumağa imkan verəcək”, - deyə D.Saidjanov əlavə edib.

Özbəkistanda media üçün məzmun yaratmaq məqsədilə Mərkəz yaradıldığını diqqətə çatdıran Dilşod Saidjanov bütün praktiki mexanizmləri hazırladıqlarını bildirib. “İndiki şəraitdə məzmunun keyfiyyətinə diqqət yetirməyimiz vacibdir. Biz informasiya sahəsində öz məzmunumuzun yer almasına xüsusi diqqət yetiririk. Bu vəziyyətdə Azərbaycan təcrübəsi bizə çox kömək edəcək. Sizin təcrübəniz çətin şəraitdə - müharibə şəraitində qazanılıb. Sizin mediada bizdə olmayan xüsusi təcrübə var. İki ölkənin mediası arasında təcrübə mübadiləsini gücləndirməli, birgə layihələr və məzmun yaratmaq üçün kadrlar hazırlamalı, ortaq məqsədlər, tarix və mədəniyyət haqqında birgə seriallar, sənədli filmlər çəkməliyik”, - deyə sektor müdiri diqqətə çatdırıb.

Azərbaycan Respublikası Audiovizual Şurasının sədri İsmət Səttarov qeyd edib ki, rəqəmsal medianın inkişafı audiovizual məzmunun istehsalı və müvafiq sahənin tənzimlənməsi istiqamətində yeni yanaşmaların tətbiqini tələb edir. Onun sözlərinə görə, bu proses qlobal media məkanında keyfiyyət standartlarının yüksəldilməsini, peşəkar prinsiplərə əsaslanan fəaliyyətin gücləndirilməsini və beynəlxalq əməkdaşlığın daha sıx qurulmasını zəruri edir. “Azərbaycan və Özbəkistan xalqlarını, sadəcə, ortaq tarix və mədəniyyət deyil, eyni zamanda, qardaşlıq, dostluq və bir-birinə bağlılıq duyğuları birləşdirir. Bu gün Bakıda keçirilən II Azərbaycan-Özbəkistan Media Forumu da məhz həmin qardaşlığın bariz nümunəsidir”.

İ.Səttarov bu münasibətlə dövlət başçılarının şəxsi dostluğu və qardaşlığı sayəsində daha da gücləndiyinə diqqət çəkib. “Azərbaycan Prezidenti İlham Əliyev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev xalqlarımız arasında əsrlərdən gələn dostluğu strateji tərəfdaşlıq və müttəfiqlik səviyyəsinə qaldırıblar. Onların siyasi iradəsi nəticəsində ölkələrimiz bu gün bütün sahələrdə, o cümlədən media sahəsində yeni imkanlar əldə edib. Media sahəsində əməkdaşlığımız bu güclü əlaqələrin vacib hissəsidir. Çünki informasiya yalnız xəbər ötürmək deyil, həm də xalqlarımızı daha sıx bağlayan körpüdür. Audiovizual Şura olaraq biz inanırıq ki, Azərbaycan və Özbəkistan media subyektləri arasında qurulan sıx əməkdaşlıq informasiya mühitimizin sağlam, obyektiv və peşəkar inkişafına mühüm töhfə verəcək”, - deyə Şuranın sədri vurğulayıb.

Özbəkistanın Azərbaycandakı səfiri Baxrom Aşrafxanov diqqətə çatdırıb ki, informasiya və media sahəsində əməkdaşlıq iki ölkə arasında strateji tərəfdaşlığın mühüm istiqamətlərindən biridir. O vurğulayıb ki, Azərbaycan və Özbəkistan mediası arasında qurulan birgə platformalar qarşılıqlı informasiya mübadiləsini gücləndirir və xalqlarımızın ortaq dəyərlərinin təbliğinə xidmət edir.

Özbəkistanın Jurnalistika və Kütləvi Kommunikasiya Universitetinin Elm və innovasiyalar üzrə prorektoru Nozima Muratova isə Forumun həm elmi müstəvidə, həm də praktik sahədə əhəmiyyətini vurğulayıb. O bildirib ki, bu platforma ali təhsil müəssisələrinin əməkdaşlığını genişləndirməklə yanaşı, gələcək jurnalistlərin rəqəmsal sahədə bacarıqlarının artırılmasına, media təhsilində müasir innovativ yanaşmaların tətbiqinə və təcrübə mübadiləsinin gücləndirilməsinə mühüm imkanlar yaradır.

Qeyd edək ki, Forum işini “Rəqəmsal dövrdə media tərəfdaşlığı: İnformasiya təhlükəsizliyi istiqamətində birgə təşəbbüslər” və “Rəqəmsal informasiya mühitində etik məsuliyyət” mövzularında panel sessiyalarla davam etdirib.

# Natiq Məmmədli: Azərbaycan və Özbəkistan arasında media sahəsində çox ciddi əlaqələr mövcuddur




Azərbaycan və Özbəkistan arasında media sahəsində çox ciddi əlaqələr mövcuddur. Bizim hər iki ölkənin media sahəsində fəaliyyəti özündə əks etdirən yol xəritəmiz var və ona uyğun olaraq artıq bir neçə ildir ki, silsilə tədbirlər həyata keçirilir.

AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında Medianın İnkişafı Agentliyinin İcraçı direktorunun müavini Natiq Məmmədli deyib.

Onun sözlərinə görə, bu gün peşəkarlıq müstəvisində davamlı olaraq rəqəmsal transformasiya və media məsələləri müzakirə olunacaq. “Burada hər iki ölkənin beynəlxalq səviyyəli ekspertləri iştirak edirlər. Tədbirdə jurnalistikanın qarşısında duran rəqəmsal mühitdə vacib məsələlər geniş müzakirə olunur”, - deyə Natiq Məmmədli bildirib.

# Rəqəmsal informasiya mühitində etik məsuliyyət...





Sentyabrın 30-da Bakıda keçirilən II Azərbaycan-Özbəkistan Media Forumu çərçivəsində rəqəmsal informasiya mühitində etik məsuliyyət mövzusu müzakirə olunub. Özbəkistanın Jurnalistika və Kütləvi Kommunikasiya Universitetinin Elm və innovasiyalar üzrə prorektoru Nozima Muratovanın moderatorluğu ilə keçirilən panel sessiyada çıxış edən AZƏRTAC-ın İdarə Heyəti sədrinin müavini Sevinc Abdullayeva Forum çərçivəsində müzakirə olunan mövzuların əhəmiyyətindən söz açıb. O qeyd edib ki, sürətli rəqəmsal transformasiya dövründə jurnalistika, sadəcə, texniki dəyişikliklərlə üzləşmir, həmçinin peşənin mahiyyətinə toxunan dərin etik çağırışlarla qarşı-qarşıyadır. Sədr müavini deyib ki, jurnalistin əsas alətləri qələm və dəftər olduğu dövrlərdən etibarən jurnalist etikası hər zaman peşəmizin ayrılmaz tərkib hissəsi sayılıb. “Lakin bu gün jurnalistin etik məsuliyyətindən danışmaq hər zamankından daha aktualdır. Çünki rəqəmsal texnologiyalar böyük imkanlar açsa da, bəzi problemləri daha da kəskinləşdirib və yeni risklər yaradıb. İnformasiyanın sürətlə yayılması, auditoriya ilə birbaşa təmas, beynəlxalq mənbələrə çıxış, işin avtomatlaşdırılması süni intellekt və rəqəmsal texnologiyaların müsbət cəhətləridir. Ancaq dezinformasiya, manipulyasiya, saxta xəbərlər, diqqət uğrunda yarış hazırda aktual problemlərdir”, - deyə S.Abdullayeva vurğulayıb.

O əlavə edib ki, belə şəraitdə etik məsuliyyət, sadəcə, peşə borcu deyil, həm də kontent axınında yolgöstərən zəminə çevrilir.

Özbəkistanın Milli Kütləvi İnformasiya Vasitələrinin Dəstəklənməsi və İnkişafı üzrə İctimai Fondun Himayəçilər Şurasının sədri Akramjon Fozilov dünya əhalisinin 69 faizinin internetdən istifadə etdiyini diqqətə çatdırıb, vurğulayıb: “Lakin bir çoxları etik davranışlara riayət etmir. Ənənəvi mediaya gəldikdə, biz fərdi məzmunu ön plana çıxarmalıyıq. Çünki dezinformasiya ictimai rəyə zərər vuran nəticələrə gətirib çıxara bilər”. Şura sədri Özbəkistan mediasında bu cür xəbərlərə rast gəlindiyini və bu biznes strukturlarının dövlət qurumlarının reputasiyasını sarsıtdığını diqqətə çatdırıb.

“Oksford Universitetinin alimləri müəyyən ediblər ki, bir çox ölkələrdə seçkilər zamanı dezinformasiya vasitələrinə əl atılır. Bu, insanların reallığı qəbul etmələri üçün çətinliklər yaradır”, - deyə A.Fozilov əlavə edib.

Onun sözlərinə görə, kiberhücümlar milli, dini mənsubiyyəti olan xalqları, icmaları hədəfə alır. “ChatGpt” və digər vasitələr vəziyyəti daha da çətinləşdirib. Sosial şəbəkələrdə vaxt keçirən yeniyetmələr trollinqin qurbana çevriliblər. Rəqəmsal etika böyük əhəmiyyət kəsb edir. İstifadəçilər aqressiyadan kənarlaşmalıdırlar. Kiberbullinq halları tədricən aradan qaldırılmalıdır. İnternetin aqressiyasını azaltmaq üçün universal bir həll yoxdur, lakin tənzimləyici qurumlar və vətəndaş cəmiyyətləri bununla mübarizə apara bilər”, - deyə Şura sədri qeyd edib.

Çıxış edən digər natiqlər də bildiriblər ki, interneti xaotik bir məkan kimi deyil, şəxsi və ictimai məsuliyyət mühiti kimi qəbul etməyi bacarmalıyıq. Burada regional əməkdaşlığın da xüsusi rolu var. Özbəkistanla birlikdə əldə etdiyimiz təcrübə regional təşəbbüslərin qloballaşması baxımından çox nümunəvidir. İnanıram ki, biz birgə şəkildə region miqyasında maarifləndirmə proqramları həyata keçirə bilərik və bu, həm peşəkar media mühitinə, həm də cəmiyyətlərimizə böyük fayda gətirəcək.

Vurğulanıb ki, müasir dövrdə dünyada məlumat axını heç vaxt dayanmır, davamlı şəkildə artır. Belə bir şəraitdə jurnalistlər üçün ən vacib amil etibar qazanmaqdır. Çünki xəbərin dəyəri onun doğruluğu və dürüstlüyü ilə ölçülür.

Bununla da Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə keçirilən “Rəqəmsal transformasiya və media” mövzusunda II Azərbaycan-Özbəkistan Media Forumu öz işini yekunlaşdırıb.

# Rəqəmsal dövrdə media tərəfdaşlığı: İnformasiya təhlükəsizliyi istiqamətində birgə təşəbbüslər...




Sentyabrın 30-da Bakıda II Azərbaycan-Özbəkistan Media Forumu çərçivəsində “Rəqəmsal dövrdə media tərəfdaşlığı: İnformasiya təhlükəsizliyi istiqamətində birgə təşəbbüslər” mövzusunda panel sessiya təşkil edilib.

AZƏRTAC xəbər verir ki, sessiya Trend informasiya agentliyinin baş redaktoru Emin Əliyevin moderatorluğu ilə keçirilib. Rəqəmsal transformasiyanın mövcud vəziyyətdə ən prioritet məsələlərdən biri olduğunu qeyd edən Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin Beynəlxalq əlaqələr və sənədlərlə iş departamentinin direktoru Rasim Bağırov deyib: “XX əsr informasiya və eyni zamanda, dezinformasiya əsridir. Bu, saxta məlumatların böyük bir axını ilə əlaqədardır. Bizim kimi mürəkkəb geosiyasi bölgədə də bu informasiyanın ayırd edilməsi mühüm əhəmiyyət kəsb edir”.

O, informasiya sahəsinin sərhədləri olmadığını deyib, buna görə də təhlükəsizliyin təmin edilməsinin zəruriliyini vurğulayıb.

“Biz Medianın İnkişafı Agentliyi olaraq media savadlılığı həftələri, konfranslar, tələbələrin və gənclərin iştirak etdiyi seminarlar, “ASAN radio” ilə “Smart media” layihəsi, AzTV-də yayımlanan “Medialb” layihələri həyata keçiririk. Mediamız Özbəkistanın media subyektləri ilə çox sıx əməkdaşlıq edir. Nümunə kimi bu yaxınlarda Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) ilə Özbəkistanın Milli İnformasiya Agentliyi (UZA) arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumunun imzalanmasını gətirmək olar. İki ölkə arasında qarşılıqlı mediaturlar təşkil olunur. Əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün böyük səylər göstərilir”, - deyə departament direktoru əlavə edib.

Özbəkistan Jurnalistlər İttifaqının sədri vəzifəsini icra edən Xolmurod Salimov informasiya təhlükəsizliyi və media sahəsindəki çağırışlardan danışarkən müasir dövrdə bu məsələlərin strateji əhəmiyyətinin getdikcə artdığını söyləyib. “Xəbərlərin çatdırılması ilə bağlı inkişaf həm yeni imkanlar yaradıb, həm də ciddi çağırışları gündəmə gətirib”, - deyə o əlavə edib.

Xolmurod Salimov bildirib ki, qarşıda geniş fürsətlərlə yanaşı, ciddi təhlükələr də mövcuddur. Çünki sürətlə yayılan məlumatların həqiqətə uyğun olub-olmamasını müəyyənləşdirmək getdikcə çətinləşir. Məhz buna görə də informasiya təhlükəsizliyinin təmin edilməsi müxtəlif sahələrdə əməkdaşlıq və birgə fəaliyyət tələb edir. “Dövlət və media arasında sıx əməkdaşlıq xəbərlərin doğruluğunu təmin etmək baxımından xüsusi əhəmiyyət kəsb edir. Unutmayaq ki, süni intellekt texnologiyalarından sui-istifadə feyk xəbərlərin yayılmasına zəmin yarada bilər. Buna görə də təlimlərə, maarifləndirmə layihələrinə və peşəkar hazırlığa ehtiyac getdikcə artır. Xüsusilə vurğulamaq istəyirəm ki, ötən il Özbəkistan Jurnalistlər İttifaqı ilə Azərbaycanın Mətbuat Şurası arasında Anlaşma Memorandumu imzalanıb. Bu çərçivədə jurnalistlərin qarşılıqlı səfərləri təşkil olunub, təcrübə mübadiləsi həyata keçirilib”, - deyə Xolmurod Salimov bildirib.

O əlavə edib ki, əhalinin media savadlılığının artırılması da mühüm məsələdir. Çünki vətəndaşların bir xəbərin və ya məlumatın nə dərəcədə doğru olub-olmadığını ayırd edə bilməsi informasiya təhlükəsizliyinin əsas şərtlərindən biridir: “Əminəm ki, Azərbaycan və Özbəkistan bu istiqamətdə əməkdaşlığı davam etdirərək həm xalqlarımız, həm də bütövlükdə region üçün böyük töhfələr verəcək”.

Azərbaycan Respublikası Audiovizual Şurasının Aparat rəhbəri Fazil Novruzov məlumatların genişmiqyaslı axınının informasiya məkanını çirkləndirməsini qaçılmaz etdiyini diqqətə çatdırıb: “Bu mənada informasiya təhlükəsizliyi cəmiyyəti bundan qoruya bilər. Bunun üçün bir sıra təsirli vasitələr mövcuddur”.

Qeyd edilən məsələlər üçün cəmiyyətin təhsil səviyyəsinin yüksəlməsinin və media savadlılığının artırılmasının vacib olduğunu vurğulayan F.Novruzov vurğulayıb ki, rəqəmsal bacarıqlar bir çox media qurumları və ictimai təşkilatlar tərəfindən uğurla istifadə olunur”.



Audiovizual Şuranın bu istiqamətdə uğurla fəaliyyət göstərdiyini diqqətə çatdıran Aparat rəhbəri əlavə edib: “2023-cü ildən başlayaraq Audiovizual Şura Bakı Dövlət Universitetində 20-dən çox media subyekti ilə 50-dən çox, həmçinin xarici ölkələrin media requlyatorları ilə çoxsaylı görüşlər keçirib. 2025-ci ildə biz Qara Dəniz Yayım Tənzimləyici Orqanlarının Forumunu təşkil etdik”.

Özbəkistanın Milli Media Assosiasiyasının Baş direktoru Abduaziz Abutolipov bu gün təhlükəsizliyin yalnız sərhədlərin qorunması deyil, ilk növbədə, məlumatların qorunması olduğunu deyib.

“İnformasiya iqtisadiyyatın, siyasətin, beynəlxalq münasibətlərin üzərində dayanan etibardır. Etibarın çökdüyü yerdə hər şey məhv olur. Buna görə informasiya təhlükəsizliyi yalnız texnologiya haqqında danışmaq deyil, mədəniyyət, dəyər və gələcək haqqında düşünməkdir”, - deyə Baş direktor əlavə edib.

# Nəqliyyat xidmətlərinin keyfiyyəti və əlçatanlığının artırılması naminə

## İctimai nəqliyyatda tarif dəyişikliyi: yüksək keyfiyyət, müasir standart...



Məlum olduğu kimi Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin qərarına əsasən, oktyabrın 1-dən ictimai nəqliyyatda, o cümlədən metroda yeni tariflər təsdiq olunaraq qüvvəyə minir. Tarif dəyişikliyi ictimai nəqliyyatda daha keyfiyyətli xidmətin göstərilməsinə zərurət yarandığı bir dövrdə sərnişindaşıma xidmətinin davamlılığını təmin etmək və dövlət proqramında qarşıya qoyulan hədəflərə nail olmaq məqsədi daşıyır.Yeni tariflər Bakı şəhərinin inzibati ərazisi daxilində şəhərdaxili, şəhərətrafı və qəsəbələrarası avtobus marşrutlarında gedişhaqları yalnız nağdsız ödəniş alətləri vasitəsilə həyata keçirilən, habelə elektriklə və ya sıxılmış təbii qazla (CNG) işləyən avtobuslara şamil ediləcək.

Bu dəyişiklik ilkin mərhələdə paytaxtın sözügedən tələblərə cavab verən mövcud marşrut şəbəkəsinin təxminən 30 faizini əhatə edəcək. Tələblərə cavab verməyən marşrutlarda isə qiymət dəyişikliyi tətbiq olunmayacaq. Eyni zamanda, tarif dəyişikliyi Bakı-Sumqayıt, Bakı-Abşeron, Sumqayıt-Abşeron arasında və digər şəhər və rayonlarda fəaliyyət göstərən müntəzəm avtobus marşrutlarında da tətbiq olunacaq. Bu dəyişiklik gedişhaqları yalnız nağdsız ödəniş aləti vasitəsilə həyata keçirilən, elektrik, CNG və ya 1 yanvar 2025-ci ildən sonra istehsal edilən dizel yanacağı ilə işləyən avtobuslara şamil ediləcək.

### Tarif dəyişikliyini zəruri edən hansı amillərdir?

Dünya bazarında baş vermiş qiymət artımları nəqliyyat şirkətlərinin və daşıyıcıların xərclərini də artırıb, onların göstərdiyi xidmətlərdən əldə etdiyi gəlirləri öz cari xərclərini ödəmir. Faktiki olaraq daşıyışı şirkətlər bir neçə ildir ki, ehtiyat hissələrinin idxal qiymətinin və təmir xərclərinin artması sayəsində zərərlə işləyirdi, sərnişindaşımada maya dəyərinə ciddi təsirlər daşıyıcı şirkətlərin maliyyə vəziyyətini pisləşdirmişdi, avtobus parklarının yenilənməsi və xidmətin davamlılığının təmin edilməsi üçün dayanıqlı resurslar yoxdur. Bu amil tarif tənzimlənməsini zəruri edir.

Bundan başqa, nəqliyyat sektorunda tariflərin dəyişməsi əsas etibarilə bazar iqtisadiyyatının tələblərindən meydana çıxan idarəetmə mexanizmlərinin optimallaşdırılması ilə bağlıdır. Belə ki, bazar iqtisadiyyatı şəraitində əsas tələblərdən biri olan rəqabətin təmin olunması və xidmət keyfiyyətinin artırılması başlıca şərtdir və tarif uyğunsuzluqları daim bu sahələrdə çevik idarəetməyə və rentabelli, dayanılqı fəaliyyətə mane olur, xidmət və keyfiyyət amillərini zəiflədir.

Bu xarakterik əlamətlər ölkəmizin nəqliyyat sektorunda uzun müddətdir ki, daha çox müşahidə edilir. Belə ki, daşıyıcı şirkətlərin maşın parkının müasirləşdirilməsi, yeni avtobusların alınması, bu sahədə əsaslı təmir və modernizasiya işlərinin aparılması, sərmayə qoyuluşları imkanları məhdud idi. Dövlət tərəfindən nəqliyyat sektoruna yönələn dotasiyalar isə bu sahəni hökumətdən ələbaxımlı vəziyyətə salır, daim subsidiya tələb olunur və daşıyıcı şirkətlərin əsaslı plan əsasında öz layihələrini icra etməsini əngəlləyirdi. Bütün bunları nəzərə alan hökumət tarif dəyişikliklərinə getməyə məcbur idi.



Ümumiyyətlə, aparılan islahatlar sərnişindaşıma və şəhər nəqliyyatının fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində mühüm yenilikləri özündə əks etdirir. Belə ki, avtomobil nəqliyyatı ilə müntəzəm sərnişin daşınmalarının dayanıqlılığının və davamlılığının, sərnişinlərə göstərilən xidmətlərin keyfiyyətinin və təhlükəsizliyinin təmin olunması, qabaqcıl beynəlxalq tələblər və təcrübə nəzərə alınmaqla müvafiq addımlar atılır. Məsələn, dövlət büdcəsinin tərkibində yaradılacaq "İctimai nəqliyyat" Məqsədli Büdcə Fondu 2 mənbədən formalaşmaqla şəhər nəqliyyatında tələb olunan zəruri ehtiyacları təmin edəcək. Ekoloji baxımdan müasir tələb və normalara cavab verən, ödəmə kartları və ya nağdsız ödəniş sisteminə keçirilmiş nəqliyyat vasitələri ilə müntəzəm sərnişin daşınmalarını həyata keçirən hüquqi şəxslərə və fərdi sahibkarlara subsidiya veriləcək ki, bu addım da nəqliyyat sektorunda idarəetmə modelinin dəyişməsini nəzərdə tutur.

### Nəqliyyat sektorunda idarəetmə modeli dəyişir

Müasir tələblərə cavab verən, təmiz ekoloji nəqliyyat parkının genişlənməsi məqsədlərinə xidmət edir. Məlumdur ki, Azərbaycan iqlim öhdəliklərini üzərinə götürmüş ölkə kimi karbon dioksidin azaldılmasını hədəfləyir və şəhərin sənaye, tikinti, nəqliyyat və digər bölmələrində ətraf mühiti çirkləndirən amillərin qarşısını almağa çalışır. Bu baxımdan şəhər ən çox zərər verən yararsız və istismar müddəti bitmiş avtobusların tədricən hərəkət xəttindən çıxarılması aktual çağırışlardandır. Dövlət başçısının müvafiq fərmanı da həmin hədəf prinsiplərinə çatmaq üçün kompleks tədbirlər planının tərkib hissəsidir. Bu tənzimləmə üsulu şəhərin ekologiyasına da müsbət təsir göstərəcək, şəxsi avtomobillərdən istifadənin azalması nəticəsində havaya atılan zərərli tullantıların miqdarı da aşağı düşəcək.

### Ekoloji təmiz nəqliyyat parkının qurulması

Bütün bunlarla yanaşı, Azərbaycan şəhər nəqliyyatı arxitekturasını büsbütün yeniləmək qərarındadır. "Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı"na əsasən, əhaliyə keyfiyyətli nəqliyyat xidmətləri göstərilməsi və əlçatanlığın təmin edilməsi məqsədilə infrastrukturun yenilənməsi, yeni metro stansiyalarının inşası, yeni vaqonların və elektrik mühərrikli avtobusların alınması, vaqonlara və avtobuslara xidmət göstərən qaraj, depo, enerji təminatı və elektrik doldurma infrastrukturunun inkişaf etdirilməsi ilə bağlı tapşırıqlar qoyulub və müvafiq orqanlar bu istiqamətdə mühüm işlər görür. Proqramda, həmçinin Bakı şəhərində və ətraf ərazilərdə dayanıqlı nəqliyyat sisteminin qurulması, sərnişin mobilliyinin keyfiyyətinin artırılması və yol-nəqliyyat hadisələrinin, habelə ekologiyaya dəyən ziyanın həcminin azaldılması üçün zəruri tədbirlər görülməsi müəyyənləşib.

Həmin prioritetlərə uyğun olaraq, ictimai nəqliyyat xidmətlərinin keyfiyyətinin davamlı olaraq yüksək səviyyədə saxlanılması və avtobus parkının yenilənməsi üçün dayanıqlı maliyyələşdirmə mexanizmini formalaşdırmaq məqsədilə ardıcıl tədbirlər görülür ki, bu da avtobus parkının yenilənməsi və keyfiyyətli sərnişindaşıma xidmətinin göstərilməsi məqsədi daşıyır.

Hazırda özəl nəqliyyat şirkətləri tərəfindən ekoloji cəhətdən təmiz texnologiyalardan, yəni elektrik enerjisi və ya sıxılmış təbii qazdan istifadə edən müasir avtobusların ölkəyə gətirilməsi davam etdirilir.

### Daşıyıcıların maliyyə dayanıqlığı artacaq

Beləliklə, tarif dəyişikliyi daşıyıcıların maliyyə dayanıqlığının artmasına, avtobus parkının yenilənməsinin sürətlənməsinə (növbəti illər ərzində hər il təxminən 400 ədəd yeni avtobusun alınması və daşımalara cəlb edilməsi gözlənilir), əhali üçün ödəniş rahatlığının təmin edilməsinə, ekoloji təmiz avtobusların istifadəsinin təşviqinə və sərnişindaşımada şəffaflığının artmasına müsbət təsir göstərəcək. Əlavə olaraq, daşıyıcıların nağdsız ödəniş sistemlərinə keçid etməsi stimullaşdırılacaq və bunun bazasında sərnişindaşımada differensial tariflərin tətbiq edilməsi üçün texniki imkanların formalaşdırılmasına şərait yaradılacaq.

Yeni tariflərin tətbiqi zamanı xidmət keyfiyyəti və müştəri məmnuniyyətinin artırılması, İstehlakçı ilə xidmət göstərən tərəflərin maraqlarının uzlaşdırılması, xidmətin dayanıqlılığının və iqtisadi əlverişliliyinin təmin olunması, keyfiyyətin yüksəldilməsi, avtobus parklarının yenilənməsi, metro infrastrukturunun genişləndirilməsi, vətəndaşların ictimai nəqliyyatdan daha rahat istifadəsinə səbəb olan yeni sərmayələrin cəlbi üçün səmərələşdirici tədbirlər görüləcək və bu istiqamətdə işlər nəzarətdə saxlanılacaq.

***Məhəmməd***

# 8 ayda 2,4 milyard dollar...

## Qeyri-neft ixracında yüksək artım

2025-ci ilin yanvar-avqust aylarında Azərbaycanın qeyri-neft ixracı artaraq 2,4 milyard dollar təşkil edib. Bu, ötən ilin 8 ayı ilə müqayisədə 10,3 faiz artım deməkdir. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac icmalı"nın yeni nəşrində qeyd edilir ki, hesabat dövründə yeyinti məhsulları üzrə ixrac daha yüksək artım nümayiş etdirib, dəyər 22,9 faiz artaraq 774,2 milyon dollara bərabər olub. İxrac mallarının strukturunda şəkər ötən ilin müvafiq dövrünə nəzərən 58,2 faiz, meyvə-tərəvəz 32,2 faiz, kimya sənayesi məhsulları 24,3 faiz, pambıq iplik 16,3 faiz, çay 2,1 faiz, qara metallar və onlardan hazırlanan məmulatlar 0,2 faiz artıb.

### Qızıl qeyri-neft ixracında ilk yerdə qərarlaşır

2025-ci ilin ötən 8 ayında aqrar məhsullar üzrə ixrac 28,2 fazi artaraq 614,4 milyon dollar, aqrar-sənaye məhsulları üzrə ixrac isə 4,7 faiz artaraq 209,5 milyon dollara bərabər olub. Bütövlükdə aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 21,3 faiz artaraq 823,9 milyon dollar təşkil edib. Qeyd olunan dövrdə ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında qızıl 210,7 milyon dollar ixrac dəyəri ilə birinci olub. Bu siyahıda pomidor 157,2 milyon dollarla ikinci, pambıq lifi 124,7 milyon dollarla üçüncü yerdə qərarlaşıb.

Cari ilin səkkiz ayında Rusiya Federasiyasına 814,1 milyon dollar, Türkiyəyə 394,5 milyon dollar, İsveçrəyə 220,2 milyon dollar, Gürcüstana 216,4 milyon dollar, Ukraynaya isə 131,8 milyon dollar dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub. Yeri gəlmişkən, təkcə, avqust ayında Rusiya Federasiyasına 97,4 milyon dollar, Türkiyəyə 54,8 milyon dollar, İsveçrəyə 33,6 milyon dollar, Gürcüstana 32,9 milyon dollar, Ukraynaya isə 21,9 milyon dollar dəyərində qeyri-neft sektoruna aid mal ixrac edilib.

### "İstisu" mineral su zavodu ixracda payını artırır

2025-ci ilin yanvar-avqust ayları üzrə hazırlanmış qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda "Prime Cotton" MMC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, "Baku Steel Company" QSC, "Export Stream" MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, "UYTROP" Məhdud Məsuliyyətli Cəmiyyəti, "P-AQRO" MMC, "STP Alüminium" MMC, "TABATERRA"QSC, "Sahdag SY" MMC yer alıb.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına Dövlət Neft Şirkətinin Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi başçılıq edir. Bundan başqa, "SOCAR Polymer" MMC, "AzerGold" QSC ,"Azəralüminium" MMC, Dövlət Neft Şirkətinin Qaz İxrac İdarəsi, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC,"SOCAR-DALĞIC" MMC, "Azərbaycan Dəmir Yolları" QSC, "İstisu" mineral su zavodu MMC və Naxçıvan MR Dövlət Energetika Xidməti də dövlət adından əsas qeyri-neft ixracatçıları hesab olunur.













### Peyk məhsullarının ixracında rekord

Azərbaycanın qeyri-neft ixracında yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri də öz imkanlarını genişləndirib. 2025-ci ilin yanvar-avqust aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos) tərəfindən dünyanın 41 ölkəsinə 11,6 milyon dolları dəyərində peyk telekommunikasiya xidmətləri ixrac edilib. "Azərkosmos"un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 66 faizni təşkil edib. 2025-ci ilin avqust ayında isə "Azərkosmos" dünyanın 35 ölkəsinə 1,5 milyon dolları dəyərində xidmət ixrac edib. Peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində 3,1 milyon dollarla Böyük Britaniya, 2,3 milyon dollarla Lüksemburq, 569,5 min dollarla Nigeriya, 537,9 min dollarla Türkiyə, 530,4 min dollarla İsveç qərarlaşıb.

### Ənənəvi bazarlardan yeni bazarlara keçid...

Hökumətin hədəfi ixracın şaxələndirilməsi, ənənəvi bazarlardan yeni bazarlara keçidin təmin olunmasıdır. Bu məqsədlə yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patentlərin alınmasının sadələşdirilməsi, ixracla əlaqəli tədqiqat-inkişaf proqram və layihələrinə çəkilən xərclərin dövlət büdcəsi hesabına ödənilməsi və əlavə güzəşt alətlərinin tətbiqi üzərində işlər aparılır. Motivasiyaedici tədbirlərdən biri logistik subsidiya mexanizminin tətbiqidir. Yeni mexanizm ixracla məşğul olan sahibkarların sərhəd-keçid məntəqələrində asan tranzit sisteminin yaradılmasını, gömrük sərhədkeçmə prosedurlarının sadələşdirilməsi, logistika üzrə güzəştlərin verilməsini və tarif səmərəliliyi üzrə təşviqlərin tətbiqini nəzərdə tutur. Eyni zamanda, yeni və qeyri-ənənəvi bazarlara ixracı stimullaşdırmaq üçün müxtəlif təşviq mexanizmlərinin verilməsi gözlənilir. Ən mühüm güzəşt aləti isə işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən biznesin xarici bazarlara çıxışında dövlət dəstəyi tədbirlərinin həyata keçirilməsi, onların ixrac fəaliyyəti üzrə logistik xərclərinin tam şəkildə qarşılanmasıdır.

Ümumilikdə, bütün bütün bu tədbirlərin məqsədi ixrac coğrafiyasının şaxələndirilməsinə töhfə vermək, ənənəvi bazarların tranzitini yeni istiqamətlərə yönəltmək, bununla da daha yüksək gəlir gətirən ixrac potensialını formalaşdırmaqdır.

### Azərbaycan məhsulları ilk dəfə "Alibaba"da ilk üçlükdə yer alıb

Azərbaycanın ixrac siyasətinin müasir platformalarından biri kimi "Azexport" portalı mühüm yer tutur. 10 ildir ki, ölkəmizdə istehsal olunan malların vahid elektron məlumat bazası rolunu oynayan portal Azərbaycanda istehsal olunan rəqabətqabiliyyətli və ixracyönümlü məhsulların xarici bazarlarda təşviqinə dəstək verir. Həmçinin ölkəmizdə biznes mühitinin yaxşılaşdırılması üçün ixracatçı sahibkarlara nəqliyyat, logistika, ödəniş və sertifikatlaşdırma, sahəsində dəstək göstərir. Portal ixrac sektorunda tərəf kimi xarici ölkələrin biznes nümayəndələri ilə elektron ticarətin intensiv aparılmasını təmin edən çevik bir struktura çevrilib.

"Azexport" portalının qlobal rəqəmsal ticarət platformalarına inteqrasiyası ənənəvi bazarlardan fərqli yeni bazarlara çıxış imkanlarına da əlverişli mühiti təmin edib. Nəticədə portal "Made in Azerbaijan" məhsullarının ixrac istiqamətlərinin genişləndirilməsində də böyük rol oynayan resursa çevrilib. "Azexport" Azərbaycanda istehsal olunan məhsulların ixracını dəstəkləyən "Alibaba.com", "eBay.com", "Wholesale", "Amazon", "All.biz" kimi dünya elektron ticarət platformalarına inteqrasiya olunub və Azərbaycan məhsullarına beynəlxalq bazarlarda sərfəli potensial alıcı tapmaqda mühüm vasitəçiyə çevrilib. İndiyə kimi həmin sifarişçilərdən 1 milyard dollardan artıq sorğular daxil olub.

***E.CƏFƏRLİ***

# Yelisey Sarayı çətin sınaq qarşısında

## Artan yoxsulluq fonunda etirazlar kütləvi hal alır - oktyabrdan başlayaraq...

2018-ci ildən etibarən Fransada prezident Emmanuel Makronun rəhbərliyi ilə həyata keçirilən səriştəsiz siyasət ölkə hüdudlarından kənarda, müstəmləkə ərazilərində olduğu kimi, daxildə də bir sıra ciddi kataklizmlərə səbəb olub. Bu gün Fransa Avropa İttifaqında (Aİ) "drayver" funksiyasını sürətlə itirməkdədir. Ölkənin kifayət qədər yüksək xarici borc öhdəliyi yaranıb. Büdcə kəsiri kritik dərəcədə artıb. Son iki ildə hökumət böhranını nizama salmaq cəhdləri Yelisey Sarayının əsas işinə çevrilib, desək, əsl həqiqəti ifadə etmiş olarıq. Bununla belə, problemi həll etmək mümkün olmur. Makron baş nazirləri tez-tez dəyişsə də, vəziyyət olduğu kimi qalır.

### Əhalinin vəziyyəti hər ötən gün pisləşir

Təbii ki, Fransada sonu görünməyən hökumət böhranından bütün sahələr təsirlənir. Lakin bu, insanların gündəlik həyatında daha ağır formada təzahür edir. Ölkədə yoxsulluq sürətlə artır və əhalinin vəziyyəti hər ötən gün daha da pisləşir. Yerli mətbuatın yazdığına görə, 40 il əvvəl, 1985-ci ildə ehtiyacı olan insanlar üçün pulsuz yeməkxana - "Restos du Coeur" assosiasiyası açılıb. O vaxtlar 8 milyon yemək paylanılıb. 2025-ci ildə isə bu rəqəm 160 milyon yeməyə çatıb və hər gün yeni insanlar yardım üçün bu assosiasiyanın yerli mərkəzlərinə müraciət edirlər.

Təqdim olunan statistika narahatedicidir. Yardım alanların yarıdan çoxu 30 yaşdan aşağıdır, üçdə biri isə azyaşlıdır. Ən çox müraciət edənlər arasında tək valideynli ailələr, gəliri qeyri-sabit olan işçilər, tələbələr, pensiyaçılar və miqrantlar var. Üç yaşından aşağı uşaqlar da (valideynləri ilə birlikdə) çoxluq təşkil edir. Yardım alanların arasında yaşlı qadınlar, xüsusilə 70 yaşdan yuxarı olanlar ön plandadır. Bu vəziyyət onların illər boyu yaşadığı əmək və pensiya bərabərsizliyinin nəticəsi olduğu bildirilir.

"Restos du Coeur" müşahidə mərkəzinin məlumatına görə, artıq yardım alan şəxslərin əksəriyyəti yalnız ayın sonunda deyil, hər yemək paylanmasına gəlirlər. Bu da onu göstərir ki, yoxsulluq artıq müvəqqəti deyil, davamlı hala gəlib. Son 3 ildə, əlavə olaraq 200 min yeni şəxs qeydiyyatdan keçib və 20 milyon yemək artıq paylanmalı olub.

Yardım üçün gələnlərin sayı artsa da, assosiasiyanın aldığı ianələr azalır. 2023-cü ildə artan inflyasiya bir çox ailəni çətin vəziyyətə saldığı kimi, "Restos du Coeur"ü də təhlükə ilə üz-üzə qoyub - bəzi yerli mərkəzlər bağlanmaq riski ilə üzləşir.

Beləliklə, 40 il keçməsinə baxmayaraq, Fransada yoxsulluq azalmır, əksinə daha da dərinləşir. Bu vəziyyət ölkədə bütün cəmiyyətin vicdanını və məsuliyyətini sorğu-sual etməyə vadar edir.





Fransa Milli Assambleyasında bir qədər bundan əvvəl hökumətə etimadsızlıq səsverməsi baş tutub. Gözlənildiyi kimi, səsvermənin nəticələri Makronun qurduğu hökumət üçün uğursuz olub. Belə ki, parlament çoxluğu Baş nazir Fransua Bayru hökumətinə etimadın əleyhinə səs verib. Milli Assambleyada səsvermə belə başa çatıb: Baş nazirə etimadın lehinə 194, əleyhinə 364.

Milli Assambleyada Bayru hökumətinə etimadsızlıq səsverməsindən sonra Makron Sebastyan Lekornunu yeni baş nazir təyin edib. Artıq yeni baş nazirdən gələcək fəaliyyət istiqamətlərinin ilk təzisləri eşidilib. Təhlillər göstərir ki, Sebastyan Lekornū proqramında yeni terminlərdən istifadə etsə də, sələfinin yolunu davam etdirməkdən başqa çarəsi yoxdur. Yenə də ölkənin 3,4 trilyon avroluq dövlət borcu xatırlanır. Bu gün Fransada etiraf olunur k, maliyyə siyasəti dəyişdirilməsə, 2030-cu ilə qədər

### Həmkarlar ittifaqlarından kütləvi etirazlara çağırışlar

dövlət borcuna xidmət ölkəyə 100 milyard avrodan çox vəsaitə başa gələcək. 2024-cü ildə dövlət borcuna xidmətə yönəldilən vəsaitin həcmi 69 milyard avroya çatıb. Verilən məlumatlara görə, borc yükü hər saniyədə 5 min avro artır.

Aydın məsələdir ki, Makron iqtidarının diletantlıq ucbatından böyük borclanmaya getməsinin fəsadlarının aradan qaldırılması sərt müdaxilələr edilməsinin zəruriliyini gündəmə gətirib. Ancaq bir-birini əvəzləyən hökumətlər iqtisadi siyasətin dəyişməsinin vacibliyindən bəhs etsələr də, borc yükünün və büdcə kəsirinin azaldılmasının asan yolunu sərt qənaət rejiminə keçiddə görürlər. 2026-cı ilin büdcə qanunu məhz belə yanaşma əsas götürülməklə hazırlanıb ki, bu da birmənalı qarşılanmayıb. Həmkarlar ittifaqları bu qanunu ədalətsiz, sosial hüquqlara qarşı hücum kimi qiymətləndiriblər. Həqiqətən də, inflyasiyanın, qiymətlərin sürətlə artması, gəlir imkanlarının isə azalması fonunda nəyi necə qənaət etməyin izahını vermək çox çətindir. Buna görə də sentyabrın 10-dan etibarən ölkədə "Tam baykot" şüarı ilə kütləvi etirazlara start verilib. Parisi və regionları bürüyən iğtişaşlar zamanı yüzlərlə etirazçının saxlanıldığı bildirilir.

Oktyabr ayında isə etirazların yeni dalğasının başlayacağı gözlənilir. Belə ki, Fransada yeni baş nazir Sebastyan Lökornü tərəfindən təqdim edilən ilk büdcə yönümlü tədbirlər ölkənin üç əsas həmkarlar ittifaqı - CFDT, CGT və CFTC tərəfindən inandırıcı hesab olunmayıb. Həmkarlar ittifaqları oktyabrın ilk günlərindən kütləvi etiraz aksiyası keçirməyə çağırıb.

Həmkarlar ittifaqları etiraz nümayişini verilən vədlərin onların gözləntilərini qarşılamaması ilə əsaslandırıblar. CFDT baş katibinin müavini İvan Rikordo "franceinfo"ya verdiyi açıqlamada bildirib ki, Lekornünün təqdim etdiyi planlarda əsl siyasi dönüş yoxdur və bu açıqlamalar 2 oktyabr aksiyası üçün əsas verir. CFDT hesab edir ki, təqdim olunan tədbirlər yalnız etirazçıların mövqeyini daha da gücləndirəcək.

CFDT, xüsusilə, 2023-cü ildə qəbul edilən pensiya islahatının dayandırılmamasından narazıdır. Rikordo bildirib ki, bu islahatın dayandırılması mühüm bir problemi həll edə bilərdi. "Baş nazir qapını açır, amma içəri dəvət etmir. Bu isə kifayət deyil", - deyə Rikordo vurğulayıb.

CGT-nin konfederal katibi Denis Qravuy da "franceinfo"ya verdiyi açıqlamada vəziyyəti "sonu olmayan bir gün" kimi təsvir edib. Onun fikrincə, Lökornünün açıqlamaları əvvəlki hökumətlərin - Bayru, Barnye, Attal siyasətindən fərqlənmir. Qravuy xüsusilə pensiya islahatının qüvvədə qalmasını, vergi ədalətsizliyinin davam etməsini və "Zucman" vergisi kimi təkliflərin rədd edilməsini kəskin tənqid edib.

CGT-nin çağırdığı 2 oktyabr etiraz nümayişi pensiya islahatının ləğvi tələbi ilə keçiriləcək. "Bu islahat rədd edilməsinə baxmayaraq, dəyişdirilməyən bir siyasətin simvoludur. Bu, gələcək bütün hökumətlərin boynunda bir daş kimi qalacaq", - deyə Qravuy bildirib.

CFTC prezidenti Siril Şabanye qeyd edib ki, S. Lekornünün açıqlamaları sosial gərginliyi azaltmaq üçün yetərli deyil. Bildirib ki, Lekornünün "austerity" (kəmərləri sıxma) siyasətindən imtina edəcəyi yönündəki bəyanatına baxmayaraq, bunun dəqiq və konkret əsaslandırması yoxdur.

CFTC də 2 oktyabr mitinginin qüvvədə olduğunu təsdiqləyib. "Etirazı ləğv etmək üçün bizə heç bir inandırıcı cavab verilməyib," - deyə Şabanye vurğulayıb.

Yeni baş nazir Sebastyən Lökornünün ilk maliyyə planları həmkarlar ittifaqlarının ümidlərini doğrultmayıb. CFDT, CGT və CFTC, sosial ədalətsizliklərin davam etdiyini və vədlərin qeyri-kafi olduğunu bildirərək, xalqı oktyabrın 2-də ölkə miqyasında geniş etiraz aksiyasına çağırıb. Fransa bu tarixdə növbəti sosial gərginlik dalğası ilə qarşı-qarşıya qala bilər.

*Mübariz FEYİZLİ*

# İran sərt sanksiyalarla üz-üzə

İranın nüvə proqramı ətrafında gərginlik yenidən pik həddə çatıb. Xəbər verildiyi kimi, 12 günlük müharibədə Amerika Birləşmiş Ştatlarının (ABŞ) və İsrailin silahlı qüvvələri İranın strateji nüvə obyektlərinə dağıdıcı zərbələr endirib. Aparılan əməliyyatların səmərəliliyi barədə İrandan və Qərb dairələrindən gələn məlumatlar bir-birini təkzib etsə də, qısamüddətli müharibədən sonra yaranan nisbi sakitlik fonunda münasibətlərin danışıqlar yolu ilə nizama salınacağına müəyyən ümidlər baş qaldırmışdı. Ancaq son günlərdə cərəyan edən proseslər İranın nüvə proqramı ətrafında bu ölkə ilə Qərb bloku arasında münasibətlərin daha kəskin fazaya keçdiyi qənaətini ifadə etməyə əsas verir. Hətta İrana yeni zərbələr endiriləcəyi barədə ehtimallar da hər ötən gün güclənir.

### Nüvə danışıqlarının uğursuzluğu

İran hakimiyyəti ölkənin nüvə proqramı ilə bağlı aparılan danışıqları ədalətli hesab etmir, bunu qərəzli və təzyiq vasitəsi kimi dəyərləndirir. Son günlərdə qonşu ölkənin siyasi rəhbərliyi İranın nüvə proqramını dinc məqsədlərlə inkişaf etdirməkdə israrlı olduğunu dəfələrlə birmənalı şəkildə bəyan edib. Lakin Qərb dairələrində rəsmi Tehranın dinc nüvə proqramından bəhs etməsi növbəti manipulyasiya kimi dəyərləndirilir və qəbuledilməz sayılır. Artan belə gərginlik fonunda İrana qarşı sərt sanksiyalar yenidən geri qayıdır. Sentyabrın 28-dən etibarən BMT-nin İrana qarşı genişmiqyaslı sanksiyaları son on ildə ilk dəfə olaraq bərpa edilib. Bildirildiyi kimi, buna səbəb nüvə danışıqlarının uğursuzluğu olub.

Nəticədə BMT Təhlükəsizlik Şurasının İrana qarşı tətbiq etdiyi silah embarqosu və digər sanksiyalar bərpa olunub. Sanksiyalar İranın nüvə və ballistik raket proqramları ilə bağlı əməliyyatları qadağan edir. Eyni zamanda, İran neftinin ixrac həcminə məhdudiyyət tətbiq olunur.

ABŞ Dövlət Departamenti İrana qarşı sanksiyaların bərpası ilə bağlı bəyanat yayıb. Bəyanatda bildirilir ki, Vaşinqton hələ də İranın nüvə proqramı ilə bağlı Tehranla razılığa gəlməyə ümid edir: "ABŞ Prezidenti Donald Tramp açıq şəkildə bildirdi ki, diplomatiya bir seçim olaraq qalır - razılaşma həm İran xalqı, həm də dünya üçün ən yaxşı nəticə olaraq qalır. Bunun baş verməsi üçün İran gecikmədən və ya uzatmadan xoş niyyətlə aparılan birbaşa danışıqlara razı olmalıdır".

Analoji addımı Avropa İttifaqı (Aİ) da atıb. Aİ bəyanat yayaraq İrana qarşı 2015-ci ildən dayandırılmış sanksiyaların yenidən bərpa olunduğunu açıqlayıb. Qərar, ABŞ-ın "snapback" mexanizmini işə salmasından sonra verilib və Hərtərəfli Birgə Fəaliyyət Planı (JCPOA) üzrə razılaşmaların pozulması ilə əlaqələndirilib.




Aİ-nin rəsmi saytında dərc edilən sənəddə vurğulanır ki, sanksiyalar İranın nüvə silahının yayılmasına dair fəaliyyəti ilə bağlı narahatlıqlar fonunda bərpa olunub. Bura 2006-cı ildən BMT Təhlükəsizlik Şurası qətnamələri ilə tətbiq olunmuş tədbirlər daxildir.

Maliyyə sahəsində İran Mərkəzi Bankı və bir sıra böyük kommersiya banklarının aktivləri dondurulub. Avropa limanlarında İran yük təyyarələrinin fəaliyyətinə məhdudiyyətlər, o cümlədən təyyarə və gəmilərə texniki xidmət qadağası da sanksiya paketinə daxil edilib.

Aİ sanksiyaların bərpasını Tehranın nüvə sazişi öhdəliklərinə qayıtmaq istiqamətində konkret addım atmadığı ilə əsaslandırıb. Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallas yaydığı bəyanatında bildirib ki, son ay ərzində Tehranla intensiv diplomatik əlaqələr aparılıb, lakin bu əlaqələr 2231 saylı qətnamənin müddətinin uzadılması üçün şərait yaratmayıb.

Nəticədə, İranın Birgə Hərtərəfli Fəaliyyət Planı üzrə öhdəliklərinə ciddi əməl etməməsi barədə BMT Təhlükəsizlik Şurasına məlumat verən ölkələr - Fransa, Almaniya və Böyük Britaniya tərəfindən "snapback" mexanizminin işə salınması ilə sanksiyalar rejimi həm BMT, həm də Aİ səviyyəsində yenidən qüvvəyə minir. "Bu tədbirlər silah embarqosunu, maliyyə və ixrac məhdudiyyətlərini, İranın nüvə və müdafiə sektoruna beynəlxalq investisiyaların qadağan edilməsini, eləcə də İran rəsmiləri və mütəxəssisləri üçün səyahət məhdudiyyətlərini nəzərdə tutur", - deyə Aİ rəsmisi vurğulayıb. Bununla belə, Kallas əlavə edib ki, sanksiyaların bərpası diplomatiya sonunun başlanğıcı olmamalıdır. Brüssel danışıqların davam etdirilməsində israr edir.

### Sanksiyaların bərpası İrana hansı təsirləri göstərə bilər?

BMT və Aİ-nin sanksiyaları bərpa etməsi fonunda rəsmi Tehran yenə də israrlı mövqeyində qalmaqda davam edir. "ABŞ və Aİ ölkələri BMT-nin ləğv edilmiş sanksiyalarının bərpasının Tehrana təzyiq vasitəsinə çevriləcəyinə inanmaqda səhv edirlər". Bu barədə İran Xarici İşlər Nazirliyinin bəyanatında deyilir.

Nazirlik qeyd edib ki, rəsmi Tehran ölkəyə zərər vurmaq cəhdlərinə qətiyyətlə cavab verəcək: "Aİ və ABŞ diplomatiya və qarşılıqlı əlaqə üçün əlverişli atmosfer yaratmaq əvəzinə qarşıdurma və böhran yaratma yolunu seçiblər və yanlış olaraq inanırlar ki, BMT-nin ləğv edilmiş qətnamələrinin bərpasına əl atmaqla yeni təzyiq aləti əldə edəcəklər. Tehran öz hüquqlarını və milli maraqlarını qətiyyətlə müdafiə edəcək və İran xalqının mənafelərinin pozulmasına yönəlmiş istənilən hərəkətə qəti və layiqli cavab verəcək".

Lakin rəsmi Tehran özünü nikbin göstərməyə çalışsa da, reallıqda vəziyyət fərqlidir. İran uzun illər ərzində ona qarşı tətbiq olunan sanksiyaların fəsadlarını yaşayıb. Xüsusilə də enerji daşıyıcılarının ixracına qoyulan məhdudiyyətlər ölkənin maliyyə vəziyyətini hədsiz dərəcədə ağırlaşdırıb. Sanksiyaların yenidən qüvvəyə minməsi İranı iqtisadi cəhətdən daha ağır duruma sala bilər. Yeri gəlmişkən, ölkədə bunun ilk əlamətləri milli valyutanın kəskin ucuzlaşmasında özünü büruzə verir.



Verilən məlumatlara görə, sanksiyalarının bərpasından dərhal sonra İran rialı dollar qarşısında tarixinin ən aşağı səviyyəsinə enib. Qara bazarda 1 dollar 1.12 milyon riala satılıb. Bu, BMT və Aİ səviyyəsində sanksiyaların bərpasının İrana təsirinin ilk və çox ciddi siqnalıdır. Digər belə təsirlərin də özünü çox gözlətməyəcəyi tam realdır. Həmçinin yeni müharibənin qaçılmaz olduğu ehtimalı da gündəmə gəlib.

*MÜBARİZ*




## Madaqaskarı kütləvi etirazlar bürüyüb

Afrikanın daha bir ölkəsində - Madaqaskarda vəziyyət gərginləşib. Qitənin cənub-şərq bölgəsində yerləşən və ada ölkəsi olan Madaqaskarın paytaxtı Antananarivu, eləcə də başqa şəhərlərində kütləvi etiraz aksiyaları baş verib. Qarşıdurmalar sentyabrın 25-də Antananarivu və ölkənin bəzi şəhərlərində elektrik enerjisinin tez-tez kəsilməsinə və su qıtlığına qarşı minlərlə insanın iştirak etdiyi etiraz aksiyaları başlayıb. Polisin nümayişləri qadağan etməsinə baxmayaraq, etirazçılar aksiyaları dayandırmayıb və öz eti-



razlarını davam etdiriblər. Şahidlərin sözlərinə görə, dinc yürüş tez bir zamanda küçə iğtişaşlarına çevrilib və bu zaman əsasən gənclərdən ibarət etirazçılar ticarət mərkəzini və parlament deputatının evini qarət edib və yandırıblar. Polis kütləni dağıtmaq üçün gözyaşardıcı qazdan istifadə edib. Gənclər təhlükəsizlik qüvvələrinin hücumundan qorunmaq üçün bəzi yollarda yanmış təkərlər və daşlardan ibarət barrikadalar qurub. Gənc etirazçılar, həmçinin şəhərin yeni kanat yolu sisteminin bir neçə stansiyasına hücum edərək həmin obyektləri də yandırıblar. Artıq iğtişaşlar ada dövlətinin bir sıra digər bölgələrinə də yayılıb. Etirazçıların su və elektrik şirkətlərinin ofislərinə hücumları da qeydə alınıb.

Xarici KİV-lərin məlumatlarına görə, yerli hakimiyyəti paytaxt Antananarivuda komendant saatı tətbiq edib. Bu qərar yerli sakinlərin etirazlarının iğtişaşlara və polislə toqquşmaya çevrilməsindən sonra verilib. Təhlükəsizlik qüvvələri dövlət obyektləri və strateji əhəmiyyət kəsb edən digər obyektləri qorumaq üçün hərəkətə keçib - fövqəladə tədbir ilə bağlı qərarın məhz bu səbəbə görə qəbul edildiyi bildirilir. Komendant saatı "ictimai asayiş bərpa olunana qədər" qüvvədə qalacaq.

Artıq Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarlığı Madaqaskardakı vəziyyətlə bağlı məruzə tərtib edib - Ali Komissarlığın məlumatında qeyd olunur ki, polis qüvvələri ilə etirazçılar arasında toqquşmalar zamanı azı 22 nəfər həlak olub; "Ən azı 22 nəfər həlak olub, 100-dən çox insan yaralanıb. Qurbanlar arasında etirazçılar və yoldan keçən vətəndaşlar var ki, onları təhlükəsizlik qüvvələrinin əməkdaşları öldürüb. Həmçinin etirazçılarla əlaqəsi olmayan ayrı-ayrı şəxslər və dəstələr tərəfindən törədilən genişmiqyaslı zorakılıq və talan nəticəsində həlak olanlar da var", - deyə Ali Komissarlığın məlumatında bildirilir. Ölkənin Baş naziri Kristian Ntsayın vəziyyətlə bağlı yerli mediaya çıxışında bildirib ki, sentyabrın 29-da Madaqaskar Universitetinin kampusunda dinc etirazçılar arasında silahlı şəxslər olub və həmin şəxslər polisə atəş açıb.

Son iğtişaşlar fonunda Madaqaskar Prezidenti Andri Radzuelina hökuməti buraxdığını elan edib. O, üç gündən sonra yeni baş nazir təyin etməyi planlaşdırır. Ölkə prezidenti xalqa müraciətində yeni hökumət formalaşdıracağını və lazımi islahatlar aparacağını bəyan edib. "Mən ölkədə idarəetmə sistemini hərtərəfli nəzərdən keçirəcəyəm və islahatlar aparacağam", - dövlət başçısı müraciətində bildirib.

O, həmçinin aksiyalarda iştirak edən gənclərlə dialoq mühiti yaratmaq niyyətində olduğunu qeyd edib və biznesi zərər görən iş adamlarına dəstək vəd edib. Afrika İttifaqı və Cənubi Afrika İnkişaf Birliyi artıq iğtişaşları pisləyib, əhalini və hökuməti sakitliyi bərpa etmək üçün dialoqa çağırıb.

Hazırda Madaqaskarda etiraz aksiyaları davam etməkdədir və aksiyaların genişmiqyaslı xarakter alacağı, hətta bütün ölkəni bürüyəcəyi ehtimal olunur. Ölkədə vəziyyətin nəzarətdən çıxmaması üçün təhlükəsizlik qüvvələri gücləndirilmiş iş rejiminə keçiblər.

*Yunis ABDULLAYEV*

# Tolerantlıq nümunəsi...

## Dini konfessiyaların rəhbərləri birgə bəyanat qəbul edib

Əsrlərdir ki, tolerantlıq nümunəsi sayılan Azərbaycan bu gün də öz dəyərlərinə sadiqlik nümayiş etdirir və bu amil istər qanunvericiliyimizdə, istərsə də gündəlik yaşamımızda öz əksini tapmaqdadır. Çoxmillətli və çoxkonfessiyalı ölkə sayılan Azərbaycanda bütün dinlərin və etnik qrupların nümayəndələri sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Yeri gəlmişkən, bir neçə gün öncə Qafqaz Müsəlmanları İdarəsində (QMİ) dini konfessiyaların rəhbərləri ilə görüş keçirilib. Görüş zamanı müxtəlif mövzular müzakirə olunub, həmçinin Azərbaycandakı dini konfessiyaların rəhbərləri 2025-ci ilin "Konstitusiya və Suverenlik ili" elan edilməsi və Böyük Qarabağ Zəfərinin 5-ci ildönümü ərəfəsində əldə olunan tarixi nailiyyətlərlə bağlı birgə bəyanat qəbul ediblər.

### Hər dinə mənsub şəhidlərin dəfnində fərq qoymadan...

Tədbirdə çıxış edən QMİ sədri Şeyxülislam Allahşükür Paşazadə bildirib ki, Azərbaycan müxtəlif dinlərə mənsub şəhidlərin dəfnində fərq qoymadan iştirak edib: "Müxtəlif dinlərə mənsub şəhidlərin dəfn mərasimlərinə birgə qatıldıq, müsəlman, katolik, pravoslav, yəhudi - fərq qoymadan birlikdə iştirak etdik.

İstər Vətən müharibəsi günlərində, istərsə də mübarək Zəfərimizdən sonra biz, Azərbaycanda fəaliyyət göstərən dini konfessiya başçıları dəfələrlə onlayn və bilavasitə görüşərək II Qarabağ savaşının müqəddəs amalları barədə ətraflı bəhs etmiş, haqq mücadiləmiz barədə dünya ictimaiyyətinə geniş məlumatların çatdırılması yönündə əlimizdən gələni əsirgəməmişik. Erməni tərəfinin müharibə cinayətləri, xalqımıza qarşı həyata keçirdiyi qeyri-insani əməllər haqqında, yaydıqları dezinformasiyaları və məkrli ittihamları ifşa etmək üçün əməkdaşlıq etdiyimiz bütün dini mərkəz və beynəlxalq qurumlarla intensiv iş apardıq. Fəxarət doğurucu haldır ki, möhtərəm dövlət başçımız İlham Əliyev cənabları mədəniyyət paytaxtımız Şuşanın Cıdır düzündə etdiyi tarixi çıxışı zamanı Qarabağ Zəfərinə Azərbaycanın din xadimlərinin, dindarların töhfəsini xüsusi qeyd etdi, fəaliyyətimizi yüksək dəyərləndirdi. Bu gün də Azərbaycandakı katoliklər, pravoslavlar, yəhudilər, alban-udilər müsəlmanlarla bərabər Vətən şəhidlərinin ailələrini diqqət və qayğı ilə əhatə edirlər, onların xatirələrini layiqli şəkildə anırlar. Bizim bu birliyimiz heç şübhəsiz ki, Ulu Öndər Heydər Əliyevin Azərbaycançılıq məfkurəsinin ayrılmaz tərkib hissəsidir və multikultural ənənələrimiz sayəsində Azərbaycan dövlətinin qüdrəti hər zaman qələbələrlə davam edəcək.



### Şuşada məscidlərlə yanaşı, kilsələr də bərpa edilir

A.Paşazadə qeyd edib ki, Bakının mərkəzində erməni kilsəsini qoruyub saxlayan dövlətimiz Şuşada məscidlərimizlə yanaşı pravoslav və erməni kilsəsini bərpa edir: "Bu, Azərbaycan xalqının, Azərbaycan dövlətinin multikultural siyasəti, mənəvi üstünlüyüdür. Uca Allahın köməyi və müdrik dövlət rəhbərimizin misilsiz səyləri ilə Füzuli, Zəngilan, Laçın hava limanları, Şuşaya aparan Zəfər yolu, Xankəndidə yenidənqurma, Böyük Qayıdış, Qarabağ torpaqlarının yeni, gözəl görkəmi, beynəlxalq zirvələrin keçirildiyi ənənəvi ünvana çevrilməsi bizim əminliyimizi, nikbinliyimizi artırır. Ali dini rəhbərlərlə azad Qarabağa səfər edərkən işğal dövründə törədilənləri əyani şəkildə nümayiş etdirməklə, habelə Ümumdünya Kilsələr Şurası ilə əməkdaşlıq edərək onları mütəmadi şəkildə Azərbaycan həqiqətləri ilə tanış etməklə biz erməni kilsəsinin anti-Azərbaycan təbliğatını, bugünədək davam etdirdikləri revanşizm ruhlu dezinformasiyalara qarşı tutarlı faktlar qoyuruq".

QMİ sədri qeyd edib ki, dünya miqyasında yüksək nüfuza malik, ən böyük beynəlxalq dinlərarası sülh məramlı qurum olan "Dinlər Sülh Naminə" Təşkilatının həmprezidenti və Ümumdünya Şurasına üzv seçilməsini xatırladıb: "Ölkəmizin adı dünya miqyasında dinlərarası dialoqla yanaşı, İslamdaxili anlaşma müstəvisində örnək olaraq vurğulanır. İslamdaxili dialoqun üzləşdiyi problemlər və onların aradan qaldırılması yollarının araşdırılması məsələlərinə həsr olunmuş Bəhreyn tədbirində müstəqil Azərbaycanın timsalında məzhəblərarası anlaşma və qardaşlığın nadir nümunəsi bütün dünyaya model olaraq təqdim olunur. Bu, Azərbaycan dövlət başçısının yeritdiyi siyasətin daha bir uğurlu nəticəsidir".

### "Biz əcdadlarımıza minnətdar olmalıyıq ki"...

Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev bildirib ki, torpaqlarımızı azad edəndən sonra ermənilərin bir qarış da torpağına göz dikmədik. O, qeyd edib ki, indi 100-dən çox regional müharibə gedir, amma nə üçün getdiyi bilinmir: "Dünya malı üçündürsə, hər şey bu cahanın, bu dünyanındır. Biz yəhudilər uzun illərdir Azərbaycanda yaşayırıq. Həmişə deyirəm biz əcdadlarımıza minnətdar olmalıyıq ki, belə məkanı bizə məskən seçiblər".

*Yeganə*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi" istiqaməti üzrə hazırlanmışdır**

# Qəzza ilə bağlı sülh planı...

## Bölgəyə sabitlik gələcəkmi?

Qlobal dünyada münaqişələri bitirən lider kimi tanın ABŞ Prezidenti Donald Tramp növbəti münaqişəni bitirməyə hazırlaşır - bu dəfə ABŞ lideri Qəzzadakı münaqişəyə fokuslanıb. O, bölgədə iki ilə yaxın davam edən son müharibəni bitirmək üçün səy göstərir. İsrail Baş naziri Benyamin Netanyahunun Vaşinqtona rəsmi səfəri bu mənada marağa səbəb olub. Qeyd edək ki, bir müddət əvvəl Qətər, Misir və ABŞ-ın vasitəçiliyi ilə aparılan sülh danışıqlarında İsrail ilə HƏMAS arasında atəşkəslə bağlı yol xəritəsi tərtib olunmuşdu. Lakin nə İsrail, nə də HƏMAS bu plan üzrə yekun mövqeyə gəlmədilər. İndiki halda isə vəziyyət daha açıq görünür. Bir sıra Avropa ölkələrinin Fələstinin müstəqilliyini tanıması ilə bağlı qərarı Qəzzada münaqişəyə son qoymaqla yanaşı, HƏMAS-ın da fəaliyyətinə xitam verilməsinə hədəflənib. Netanyahunun Vaşinqtona səfəri çərçivəsində səsləndirilən bəyanatlar bunu deməyə əsas verir.

### Tramp Qəzzada müharibəni bitirmək üçün plan təqdim edib

Belə ki, sentyabrın 30-da Ağ Evdə Tramp ilə Netanyahu arasında ikitərəfli görüş baş tutub. Görüşdə hər iki lider Qəzzada müharibənin bitməsinə yönələn 21 maddəlik həll planının icrası, o cümlədən ABŞ-ın İsrailə bundan sonrakı dəstəyi barədə müzakirələr aparıb. Görüşdən sonra Tramp və Netanyahu mətbuat konfransında iştirak ediblər. Qəzzada nə zaman müharibəyə son qoyulacağı ilə bağlı jurnalistlərin suallarını cavablandıran Tramp bölgədə atəşkəsin təmin olunması istiqamətində razılaşmanın çox yaxın olduğunu deyib - o, Netanyahunun 21 maddəlik sülh planına razı olduğunu, lakin hələ də HƏMAS-ın təsdiqinə ehtiyac duyulduğunu bildirib. Post-müharibə dövründə Qəzzada idarəçiliyin kimin nəzarəti altında olacağına gəlincə, Tramp bəyan edib ki, bölgənin yenidən qurulmasına nəzarət etmək üçün Keçid Sülh Şurasının yaradılması planlaşdırılır. Onun sözlərinə görə, bu, 21 maddəlik sülh planında öz əksini tapıb. Ağ Evin rəhbəri ərəb ölkələrinin, İsrailin və planda iştirak edən hər kəsin qərarı ilə bu şuraya rəhbərlik edəcəyini, habelə planın hazırlanmasında rol oynamış digər dövlət başçıları, eləcə də Böyük Britaniyanın keçmiş Baş naziri Toni Bleyrin də şuranın idarəçiliyinə daxil ediləcəyini diqqətə çatdırıb. Tramp, həmçinin HƏMAS-a ciddi xəbərdarlıq edib - o, hərəkatı silahı yerə qoymağa çağırıb; "Əgər Həmas şərtləri qəbul etməsə, məhv ediləcək və ABŞ İsraili tam dəstəkləyəcək. Ərəb dövlətləri HƏMAS-ın tərksilah edilməsi və özünü buraxmasına yardım edəcəklərini söz verib".

Qeyd edək ki, "Əl Cəzirə" - nin məlumatına görə, Qətər və Misir Trampın Qəzza münaqişəsinin həllinə dair sülh planını HƏMAS-ın danışıqlar qrupuna təqdim edib.



### Sülh planında əsas məqamlar - HƏMAS etiraz edir...

Donald Trampın Qəzzadakı münaqişənin həllinə yönələn 21 maddəlik sülh planında mühüm siyasi məqamlar əks olunub;

- İsrail anklavı ilhaq etməyəcək
- İsrail 72 saat ərzində girovların azad edilməsi müqabilində Qəzzada hərbi əməliyyatları dayandıracaq və qoşunlarını zolaqdan çıxardacaq
- Qəzza demilitarizasiya olunacaq
- HƏMAS və ona bağlı olan silahlı qruplaşmalar birbaşa və ya dolayı yolla Qəzzanın idarə edilməsində iştirak etməyəcəklər
- Silahı yerə qoymağa və dinc yanaşı yaşamaya razı olan HƏMAS üzvləri üçün amnistiya olacaq
- Qəzza Trampın rəhbərlik etdiyi beynəlxalq qurumun nəzarətində olan müvəqqəti hökumət tərəfindən idarə olunacaq
- Qəzza zolağında xüsusi iqtisadi zonanın yaradılması nəzərdə tutulur
- Saziş imzalandıqdan sonra Qəzzada infrastrukturun bərpası, bölgəyə beynəlxalq humanitar yardımın göndərilməsi istiqamətində addımlar atılacaq
- ABŞ Qəzzada atəşkəsi təmin edəcək müvəqqəti sabitlik qüvvələri yaratmaq üçün ərəb və beynəlxalq tərəfdaşlarla əməkdaşlıq edəcək
- Sakinlər Qəzza Zolağını tərk etməyə məcbur edilməyəcəklər

Qeyd edək ki, HƏMAS-ın Trampın 21 maddəlik sülh planını rədd etməsi ilə bağlı xəbərlər yayılıb - "Haberler.com" nəşrinin məlumatına görə, hərəkatın rəhbərlərindən Mahmud Mərdavi bəyan edib ki, plan qeyri-müəyyəndir, zəmanəti yoxdur və Fələstin dövlətinin tanınması istiqamətindəki prosesi dayandırmaq məqsədi daşıyır. HƏMAS rəsmisi bildirib ki, fələstinlilərin öz müqəddəratını təyin etmə haqqını tanımayan, xalqı qətliamlardan qoruma mexanizmi olmayan heç bir təşəbbüs qəbul edilməyəcək. Təşkilat sənədi digər fələstinli qruplarla birgə müzakirə edəcəyini də açıqlayıb.

### Netanyahu Trampın planını dəstəkləyir

Benyamin Netanyahu öz növbəsində Trampın Qəzzadakı münaqişənin həllinə dair sülh planını dəstəklədiyini bəyan edib - o, qeyd edib ki, ABŞ liderinin planı İsrailin maraqlarına xidmət edir. "Trampın Qəzza planı bizim strateji məqsədlərimizə münasibdir. Bu, bütün girovlarımızı geri qaytaracaq, HƏMAS-ın hərbi imkanlarını aradan qaldıracaq, siyasi hakimiyyətinə son qoyacaq və Qəzzanın bir daha İsrail üçün təhlükə yaratmamasını təmin edəcək," - deyə Netanyahu vurğulayıb ki, HƏMAS-ın bu planı qəbul etməkdən başqa alternativi yoxdur. "HƏMAS planı rədd etsə və ya qəbul etsə, lakin sonradan ona qarşı hərəkət etsə, İsrail işi özü bitirəcək. Bu asan yolla edilə bilər, ya da çətin yol. Biz asan yola üstünlük veririk, lakin bunu etmək lazımdır".

Netanyahu İsrailin Trampın sülh planının müddəalarına əməl edəcəyini və bu plana sadiq olacağını da bildirib. "Bundan sonra bütün girovlar 72 saat ərzində azad ediləcək. Növbəti mərhələdə HƏMAS tamamilə tərksilah ediləcək və Qəzza demilitarizasiya olunacaq".

### Qəzzada vəziyyətin inkişaf perspektivləri nə vəd edir?

Məsələ ilə bağlı fikirlərini bölüşən Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin siyasi eksperti Sultan Zahidov qeyd edib ki, Trampın sülh planı Fələstin xalqı üçün münasibdir, amma planın baş tutması sual altındadır. "Trampın sülh planında bir sıra mübahisəli məqamlar var. İlk növbədə bu planda Fələstin dövlətçiliyinin yer alması İsraili qane etmir. Eyni zamanda plana əsasən Qəzzada atəşkəs təmin edildikdən sonra bölgəyə Fələstin hökuməti - FƏTH hakimiyyətinin nəzarət etməsinə imkan verilməyəcək. İsrail buna qarşı çıxır. Bununla yanaşı, sözügedən planda HƏMAS-ın tərkisilah olunması ilə paralel İsrailin öz qüvvələrini Qəzza zolağından tam çıxarması ilə bağlı öhdəlik yoxdur. Ona görə də bu planın HƏMAS tərəfindən qəbul edilməsi müşkül məsələdir," - deyə S.Zahidov vurğulayıb ki, HƏMAS hələ bu plana qəti mövqeyini bildirməyib; "HƏMAS-ın rəhbərlərinin ofisləri ayrı-ayrı ölkələrdə yerləşir. Onlar arasında çox çətin şəkildə koordinasiya qurulur. HƏMAS Trampın planını bir müddət nəzərdən keçirməklə məşğul olacaq. Hərəkatın cavabı bir az zaman aparacaq. Lakin burada xüsusi bir məqamı vurğulayım ki, əgər HƏMAS Trampın sülh planında əks olunan müddəalara razı olarsa, bu, onun ağ bayraq qaldırması demək olacaq. Bu səbəbdən HƏMAS-ın müsbət cavab verəcəyi inandırıcı görünmür".

Ekspert əlavə edib ki, ərəb ölkələrinin HƏMAS-a münasibəti dəyişə bilər; "Misir, Qətər və digər ərəb ölkələri Trampın Qəzzadakı münaqişənin həllinə yönələn sülh planını dəstəkləyirlər. Ərəb ölkələrinin mövqeyi HƏMAS-ı çıxılmaz vəziyyətə sala bilər. Əgər HƏMAS-ın rəhbərliyi bu dəfə də etiraz edərsə, bu, ərəb ölkələrinin hərəkata dəstəyinin sıradan çıxmasına səbəb olacaq. Heç bir dəstək olmadan HƏMAS-ın müqaviməti davam etdirməsi qeyri-mümkündür". S.Zahidov hesab edir ki, bu planın reallaşacağı sual altındadır; "Ortaya sual çıxır ki, plan çərçivəsində HƏMAS silahı yerə qoyacaqmı? Belə bir oxşar razılaşma keçən il - 2024-cü ilin sonlarında İsrail ilə Hizbullah arasında imzalanmışdı. Bu müqaviləyə görə, Hizbullah silahı yerə qoymalı və tərksilah olunmalı idi. Amma biz görürük ki, Hizbullahın Livanın müxtəlif bölgələrində silahlı dəstələri qalmaqdadır. Eyni hal HƏMAS - a da aid ola bilər".



*Yunis ABDULLAYEV*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Bakmətbuat" MMC - 0124314313
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**







# Hüququn və ədalətin keşiyində...

## Prokurorluq orqanlarının yaranmasından 107 il ötür

*Yeganə BAYRAMOVA*

Azərbaycanın dövlətçilik prinsiplərinin ən mühüm sütunlarından biri ədalət mühakiməsinin, qanunun aliliyinin təmin olunmasıdır. Bu baxımdan prokurorluq orqanlarının yaranması, fəaliyyətə başlaması və zamanın sınaqlarından keçərək bu günə gəlib çatması, ölkəmizin hüquq və ədalət sistemində mühüm mərhələdir. Üstündən bir əsrdən artıq vaxt keçməsinə baxmayaraq, prokurorluğun tarixi yalnız rəqəmlərlə deyil, həm də dövlətçilik düşüncəsi, milli iradə və hüquqi mədəniyyətin inkişafı ilə ölçülür.

107 illik yol - həm çətinliklərin, həm də uğurların məcmusudur. Əsrin əvvəllərində cümhuriyyətin hüquqi təməlini qoyan bu orqan sonrakı onilliklərdə müxtəlif siyasi, ictimai şəraitlərdən keçərək güclənmiş, müstəqillik dövründə isə tamamilə yeni mahiyyət qazanaraq, dövlətimizin suverenliyi, vətəndaşların hüquq və azadlıqlarının qorunması üçün etibarlı mexanizmə çevrilmişdir.

Bu gün prokurorluq orqanlarının 107 illik yubileyi yalnız tarixi fakt kimi yox, həm də Azərbaycan dövlətçiliyinin yetkinliyinin göstəricisi kimi dəyərləndirilir. Keçmişin təcrübəsi, bu günün tələbləri və gələcəyin hədəfləri fonunda prokurorluğun institusional gücü, peşəkar kadrlara söykənən fəaliyyəti və cəmiyyətin etimadını doğruldan mövqeyi daha aydın görünür.

Bəli, bu gün Azərbaycanda prokurorluq işçilərinin peşə bayramıdır. Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluq təsis edib. Prokurorluq orqanlarında aparılan hərtərəfli islahatların ilkin əsasını və qanunvericilik bazasını 12 noyabr 1995-ci il tarixdə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası təşkil edir.

Azərbaycan Konstitusiyasında ölkəmizin dövlət quruluşu sistemində prokurorluğun yeri müəyyənləşdirilib. Belə ki, məhkəmə hakimiyyəti sisteminə daxil olan prokurorluq orqanlarının statusu, təşkili, fəaliyyət prinsipləri, səlahiyyət dairəsi və vəzifələri qanunvericilik qaydasında təsbit edilib.

Heydər Əliyevin 17 iyul 1998-ci il tarixli Sərəncamı ilə milli prokurorluq orqanlarının yarandığı gün - oktyabr ayının 1-i Prokurorluq işçilərinin peşə bayramı günü kimi təsis edilməklə qeyd olunmağa başlanılıb.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda hüquqi dövlət quruculuğu, qanunun aliliyinin təmin olunması və vətəndaşların hüquq və azadlıqlarının qorunması prioritet istiqamətlərdən birinə çevrilib. Dövlət başçısı hər zaman vurğulayıb ki, ədalət və qanunçuluq prinsipləri yalnız cəmiyyətin deyil, həm də dövlət idarəçiliyinin əsas dayağıdır. Bu baxımdan prokurorluq orqanlarının fəaliyyəti müasir tələblərə uyğun şəkildə təkmilləşdirilmiş, struktur və kadr islahatları həyata keçirilib, maddi-texniki baza gücləndirilib.

Prokurorluq orqanlarının müstəqilliyi və peşəkarlığının artırılması istiqamətində qəbul edilən dövlət proqramları, qanunvericilikdə aparılan dəyişikliklər və idarəçilikdə tətbiq olunan innovativ mexanizmlər, məhz Prezident İlham Əliyevin siyasi iradəsinin nəticəsidir. Bu gün prokurorluq yalnız cinayətkarlığa qarşı mübarizə aparan bir institut deyil, həm də vətəndaşların ədalətə inamını möhkəmləndirən, dövlətin sosial-siyasi sabitliyinə töhfə verən mühüm hüquq mühafizə orqanıdır.

Xüsusilə son illərdə korrupsiyaya qarşı mübarizə, şəffaflığın təmin olunması, elektron xidmətlərin tətbiqi və kadr hazırlığında yeni mərhələnin başlanması prokurorluğun fəaliyyətinə keyfiyyətcə yeni çalarlar gətirmişdir. Bu isə Prezident İlham Əliyevin müəyyən etdiyi strateji kursun - hüquqi dövlət, güclü ədalət sistemi və qanunun aliliyinin təmin olunması siyasətinin bariz təzahürüdür.

Azərbaycan Prezidentinin 3 mart 2004-cü il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin yaradılması həm də prokurorluq strukturunun daha da təkmilləşdirilməsinə yönəldilmiş mühüm bir addım olmaqla, mütəşəkkil cinayətkarlığın ən təhlükəli təzahürlərindən olan korrupsiyaya qarşı mübarizənin gücləndirilməsində və işin daha səmərəli təşkil olunmasında əhəmiyyətli rol oynayır.

Prokurorluq işçiləri hüquqi maarifləndirmə işlərində də fəal iştirak edirlər. Onlar yalnız cinayətkarları cəzalandırmaqla deyil, eyni zamanda, cinayətin qarşısını almaqla, vətəndaşlara qanunun necə işlədiyini başa salmaqla da məşğuldurlar. Bu isə uzunmüddətli perspektivdə hüquqi savadlı və təhlükəsiz bir cəmiyyətin formalaşmasına xidmət edir.

# Ağ saçlar altında gizlənən müdriklik...



## Beynəlxalq Ahıllar Günüdür

*Yeganə BAYRAMOVA*

Zaman sanki axar sudur, biz fərqinə varmadan ötüb keçir. Uşaqlıq, gənclik, orta yaş dövrləri ard-arda gəlir və nəhayət, insan həyatının ahıllıq dövrü yetişir. Bu mərhələdə insanın ehtiyacları dəyişir - daha çox diqqətə, şəfqətə və qayğıya ehtiyac duyur.

Oktyabrın 1-i Beynəlxalq Ahıllar Günüdür. BMT-nin Baş Məclisi 1992-ci ildə ahılların müdafiəsi ilə bağlı qətnamə qəbul edib. Qətnamənin prinsiplərinə əsasən, hər il oktyabrın 1-i bütün dünyada Beynəlxalq Ahıllar Günü kimi qeyd olunur. Bu tarixin beynəlxalq səviyyədə qeyd edilməsi isə ahıllara diqqət və qayğının artırılması məqsədi daşıyır. Bu günü əvvəlcə Avropada, sonra Amerikada, ötən əsrin 90-cı illərinin axırlarında isə artıq bütün dünyada qeyd etməyə başlayıblar.

BMT-nin məlumatına görə, son onilliklər ərzində dünya əhalisinin tərkibi kəskin dəyişib. 1950-ci ildən 2010-cu ilə qədər dünyada insan ömrünün uzunluğu 46-dan 68 ilə qədər artıb və əsrin axırlarında 81 ilə çatdırılacağı proqnozlaşdırılır. Hazırda dünyada yaşı 60-dan yuxarı olan 900 milyondan çox insan var, 2050-ci ilə qədər onların sayının iki milyarda yaxın olacağı və dünya əhalisinin 20 faizindən çoxunu təşkil edəcəyi gözlənilir. Mütəxəssislərin proqnozlarına inansaq, 2050-ci ildə bəşəriyyət tarixində ilk dəfə olaraq yaşı 60-dan yuxarı olanların sayı uşaqlardan daha çox olacaq.

Qeyd edək ki, Beynəlxalq Ahıllar Günü ölkəmizdə 1993-cü ildən qeyd olunur. Məlumdur ki, Azərbaycan Respublikasının dövlət siyasətinin prioritet istiqamətlərindən biri də yaşlı nəslə, ahıllara qarşı diqqət və qayğının göstərilməsidir. Onların sosial problemlərinin araşdırılması və həlli məsələləri günü-gündən ölkəmizdə daha da geniş vüsət alır. Bu istiqamətdə qanun layihələri hazırlanır, dövlət proqramları həyata keçirilir. Bu yol isə Ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan yoldur - Ulu öndər ahıl insanlara, onların problemlərinə hər zaman böyük diqqət və qayğı ilə yanaşıb, 2001-ci il iyunun 22-də "Ahıllara sosial xidmət haqqında" Qanun imzalayıb. Həmin sənədə əsasən, 70 yaşına çatan Azərbaycan



vətəndaşları, habelə ölkəmizdə daimi yaşayan əcnəbi və vətəndaşlığı olmayan şəxslər ahıl hesab olunur.

Azərbaycanda yaşlı insanların problemlərinə həssas münasibət bu gün də mövcuddur. Pensiya yaşlı insanların sosial müdafiəsinin gücləndirilməsi Prezident İlham Əliyevin diqqət mərkəzindədir. "Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı"na əsasən, onların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində davamlı islahatlar həyata keçirilir. Bu islahatlar ölkəmizdə sosial müdafiə sisteminin beynəlxalq standartlar səviyyəsində yenidən qurulmasına imkan verir.

Həssas sosial qrupa aid olan ahıllarla bağlı danışarkən Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən layihələrdən bəhs etməmək mümkün deyil. Xüsusilə, uşaqlar və ahıllara münasibətdə Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın davamlı və məqsədyönlü siyasəti dövlətimizin həyata keçirdiyi sosial dövlət prioritetlərinin gerçəkləşməsində böyük əhəmiyyət daşıyır. Mehriban Əliyeva ahılların ən böyük qayğıkeşidir. Azərbaycanın Birinci xanımının təşəbbüsü ilə Fondda ahılların sağlamlığı diqqətdə saxlanılır. Ahıllar günündə də bu insanlar üçün müxtəlif tədbirlər təşkil olunur. Bir sözlə, bu gün Azərbaycanda hər bir ahıl vətəndaşa dövlət tərəfindən yüksək diqqət və qayğı göstərilir.

# Nar" gənclərin sağlam və aktiv həyat tərzinə töhfə verərək boks təlimlərinə dəstək olur

Sərfəli mobil xidmətlər təqdim edən "Nar" yeniyetmələr arasında sağlam həyat tərzinin təbliğinə boks təlimləri ilə davam edir. Layihənin öncəki illərdəki uğurlarına əsaslanan "Nar" yeniyetmələrin peşəkar təlim üçün bütün lazımi boks ləvazimatları ilə təchiz olunaraq təlimlərdə iştirak etmələrinə imkan yaradıb. "Baku Fight Lab"la əməkdaşlıq çərçivəsində aztəminatlı ailələrdən olan gənclərə dünya və Avropa çempionlarının məşqçiləri təlim keçəcək.







Tədbirdə çıxış edən "Nar"ın İctimaiyyətlə əlaqələr və korporativ ünsiyyət departamentinin direktoru Hökümə Kərimova bildirib: "Bizim məqsədimiz yeniyetmələrin sağlam həyat tərzinə sahib olmalarına, təhsildə və idmanda uğurlu olmalarına, möhkəm xarakter formalaşdırmalarına dəstək verməkdir. Bu təlimlər onlara yalnız bugünkü deyil, həm də gələcək həyatları üçün dəyərli keyfiyyətlər qazandıracaq".

"Baku Fight Lab" klubunun vitse-prezidenti, müstəqil Azərbaycanın yeniyetmələr arasında boks üzrə ilk dünya çempionu Fərhad Acalov isə vurğulayıb: "Bu layihə ilə biz uşaqlara yalnız peşəkar boks vərdişləri deyil, həm də sağlam həyat tərzi və güclü xarakter formalaşdırmaq üçün motivasiya veririk. İnanırıq ki, bu təşəbbüs onların gələcək inkişafında mühüm rol oynayacaq".

Layihənin bir hissəsi olaraq, tədbirdə gənclər üçün motivasiyaedici çıxış da baş tutub. Bu çıxışın spikeri - boks üzrə dünya kubokunun bürünc mükafatçısı, İslam Oyunlarının gümüş medalçısı, dəfələrlə Azərbaycan çempionu olan Tamerlan Abdullayev iştirakçılarla öz təcrübəsini və uğur hekayəsini bölüşüb, onları idmanda və həyatda məqsədlərinə çatmaq üçün ruhlandırıb.

"Nar" sosial məsuliyyətli şirkət olaraq, diqqəti aztəminatlı ailələrdən olan yeniyetmələrə yönəltməklə, onların sağlam həyat tərzini mənimsəmələri üçün geniş imkanlar yaradır. Mobil operatorun həyata keçirdiyi digər sosial layihələrlə nar.az vasitəsilə tanış ola bilərsiniz.

Hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 6 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.






# "Qarabağ"ın futbolçusu: Yaxşı nəticə üçün əlimizdən gələni edəcəyik

Bizi ciddi oyun gözləyir. Matça yaxşı hazırlaşmışıq. Bu gözəl arenada azarkeşlərimizi sevindirməyə çalışacağıq.

AZƏRTAC xəbər verir ki, bu sözləri "Qarabağ"ın futbolçusu Leandro Andrade UEFA Çempionlar Liqasının əsas mərhələsində Bakıda Danimarkanın "Kopenhagen" komandasına qarşı keçirəcəkləri II tur oyunundan öncə mətbuat konfransında deyib. Kabo-verdeli yarımmüdafiəçi "Kopenhagen"in əla komanda olduğunu bildirib: "Çempionlar Liqasında iştirak edən bütün komandalar güclüdür. Yaxşı nəticə qazanmaq üçün əlimizdən gələni edəcəyik".

L.Andrade sabahkı matçda qol vurub-vurmayacağı ilə bağlı sualı isə belə cavablandırıb: "Əsas olan komandanın meydanda sonadək mübarizə aparmasıdır. Düşünürəm ki, çox maraqlı oyun olacaq".

Qeyd edək ki, oktyabrın 1-də Tofiq Bəhramov adına Respublika Stadionunda keçiriləcək "Qarabağ" - "Kopenhagen" oyunu saat 20:45-də başlayacaq.

# Azərbaycan güləş yığmalarının III MDB Oyunları üçün heyətləri açıqlanıb

Oktyabrın 3-dən 7-dək III MDB Oyunlarında güləş yarışları keçiriləcək. AZƏRTAC xəbər verir ki, Gəncə Olimpiya İdman Kompleksində ayın 3-4-də sərbəst və qadın güləşi üzrə, ayın 7-də isə yunan-Roma güləşi üzrə qaliblər müəyyənləşəcək. Azərbaycan, Belarus, Qazaxıstan, Qırğızıstan, Rusiya, Tacikistan, Türkmənistan və Özbəkistandan ümumilikdə 150 güləşçi mübarizə aparacaq. Ölkəmizi MDB Oyunlarında 27 güləşçi təmsil edəcək.

Sərbəst güləşdə böyük məşqçi Əsgərxan Novruzov, məşqçilər Vahid Məmmədovla Yaşar Əliyevin rəhbərliyi altında Hüseyn Rzazadə (45 kiloqram), Rəvan Həsənzadə (48 kiloqram), Hacıhüseyn Əhmədzadə (51 kiloqram), İbrahim Süleymanov (55 kiloqram), Rəşid Nazarov (60 kiloqram), Hüseyn İsmayılov (65 kiloqram), Nihad Abasov (71 kiloqram), Əli Hacıyev (80 kiloqram), Amin Nəsibov (92 kiloqram) və Hakim Tağıyev (110 kiloqram) çıxış edəcəklər.




Qadın güləşində baş məşqçi əvəzi Toğrul Əsgərov, məşqçilər Həsrət Məmmədyarov və Solmaz Adilovanın rəhbərliyi altında Günel Quliyeva (43 kiloqram), Nərin Əhmədli (46 kiloqram), Xədicə Qurbanzadə (49 kiloqram), Xədicəxanım Talıbova (53 kiloqram), Esra Məmmədli (57 kiloqram), Fidan Babayeva (61 kiloqram) və Simurə Abdullayeva (65 kiloqram) uğur qazanmağa çalışacaqlar.

Yunan-Roma güləşində isə böyük məşqçi Taleh İsrafilov, məşqçilər Nazim Əhmədovla Rasim Ağayevin rəhbərliyi altında Ömər Salmanov (45 kiloqram), Yusif Mirzəyev (48 kiloqram), Elşad Abbasov (51 kiloqram), Hikmət Haqverdiyev (55 kiloqram), Əli Nəzərov (60 kiloqram), Nihat Tağıyev (65 kiloqram), İslam Sultanov (71 kiloqram), Nicat Yeylaqaliyev (80 kiloqram), Emil Abasov (92 kiloqram) və Rauf Mütəllimov (110 kiloqram) ölkəmizi təmsil edəcəklər.



# Azərbaycan boksçusu: III MDB Oyunlarının ölkəmizdə keçirilməsi məsuliyyətimizi ikiqat artırır

III MDB Oyunlarının ölkəmizdə keçirilməsi məsuliyyətimizi ikiqat artırır. Ona görə bu yarışa çox hazırlaşmışam.

Bunu AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində III MDB Oyunlarının Yevlax Olimpiya Kompleksində təşkil olunan boks yarışında çıxış edən Azərbaycan boksçusu Gülər Hüseynova deyib.

"Məqsədim Bayrağımızı yüksəltməkdir. İlk qarşılaşmada Tacikistan idmançısına qalib gəldim. İnanıram ki, bundan sonrakı qarşılaşmalarda da qalib gələcəm və qızıl medala layiq görüləcəm", - deyə o bildirib.


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4964
Sifariş: 2025
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova